

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

10 iyul 2025-ci il, cümə axşamı
№ 117 (6944)
Qiymәti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




# Azərbaycan Prezidenti Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdədir

## Azərbaycan ilə BƏƏ arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi imzalandı

Bax səh. 2



## Sülh prosesində vacib addım

Bax səh. 2

## Çindən Avropaya...

Çindən Orta Dəhliz vasitəsilə iyulun 9-da Avropaya yeni yük qatarı marşrutu açılıb.

Çinin qərbindəki ən iri 2 şəhəri olan Çendu və Çonçindən yükləri götürən ultraekspres blok qatarı Sincan Uyğur Muxtar Rayonundakı Horqos terminalından Qazaxıstana keçəcək. Kommunikasiya avadanlığı, avtomobil hissələri və digər mallar yüklənmiş qatar Orta Dəhlizlə yolunu davam edərək, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək yükləri Avropa ölkələrinə çatdıracaq.

Qeyd edək ki, bu, son 10 gün ərzində Çindən Orta Dəhliz vasitəsilə Avropaya açılan 2-ci yük qatarı marşrutudur. İyunun 30-da paytaxt Pekindən Avropaya ilk yük qatarı yola salınıb. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə hərəkət edən qatarın yola düşəndən 15 gün sonra Bakıya çatması gözlənilir. Qatar ənənəvi dəniz yolu ilə müqayisədə yükləri Bakıya 30 gün daha tez çatdıracaq. Qatardakı bəzi yüklər Bakıdan Gürcüstan, Türkiyə və Serbiyaya yola salınacaq.



## Azərbaycan heç bir ölkə üçün təhdid deyil!

Bax səh. 3

## Lyanyunqan-Bakı marşrutu...

### Avrasiya məkanında daha rəqabətqabiliyyətli nəqliyyat bağlantısı

Bax səh. 3

## “Moody’s” Azərbaycanın investisiya reytinqini yüksəltdi

Bax səh. 5

## BMT-də “mandat” davası

### Erməni lobbisi hələ də ucuz kampaniyalar axtarışındadır

Bax səh. 5

## Qəbulə xanım və I Pyotr

### Qan düşmənçiliyinin qısa tarixi

Bax səh. 7



## Avrozonanın yeni üzvü...

Bax səh. 7



## “Rotterdam” yüksək hərbi hazırlıq vəziyyətinə gətirilir

Bax səh. 6

# Azərbaycan ilə BƏƏ arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi imzalandı





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 9-da Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərimizin yüksək səviyyədə olduğu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyi vurğulandı.

Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlandı, həmin səfərlər zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli gündəliyimizlə bağlı geniş müzakirələrin aparıldığı qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı, enerji, o cümlədən bərpaolunan enerji sahəsində ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və bu istiqamətdə perspektiv layihələr müzakirə edildi.

SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirildi.

Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün əhəmiyyətinə toxunuldu və Birləşmiş Ərəb Əmirliklərinin bu tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edildi.

Sonra prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalandı.

Görüşün sonunda dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

# Sülh prosesində vacib addım

## İkitərəfli danışıqlar formatı uğurlu nəticənin əsas meyarıdır...

**Cənubi Qafqaz bəlkə də yüzilliklərdir ki, gözlədiyi sülhün, sabitliyin bir addımlığındadır. 2022-ci ildən start götürmüş və son dövrlərdə ikitərəfli danışıqlar prosesi əsasında mühüm bir yol qət etmiş sülh danışıqları özünün ən mühüm nəticələrini ortaya qoyur. Beləliklə, ötən dövr ərzində qarşılıqlı müzakirələr nəticəsində artıq sülh sənədinin 17 maddəsinin hər biri razılaşdırılıb - vurğulandığı kimi, sülhün imzalanmasına cəmisi bir addım qalıb. Ermənistanın bu "bir addım"ı atması bölgədə daimi və əbədi sülhün yaranmasına yol açacaq. Yeri gəlmişkən, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında davam edən sülh prosesi çərçivəsində iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında ikitərəfli görüş keçiriləcək. Bu da nəticəyə doğru olduqca vacib bir addım sayıla bilər.**



### Birbaşa danışıqlar formatı...

Göründüyü kimi, uzun illərdən sonra Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması artıq reallığa çevrilir. Azərbaycanın 2020-ci il Vətən müharibəsində və 2023-cü il antiterror tədbirlərində əldə etdiyi qələbə bölgədə yeni siyasi mənzərə formalaşdırıb - Ermənistan anlamalıdır ki, regional təhdidə çevrilməklə heç nə əldə etməyəcək. Əksinə, Azərbaycanın sülh çağırışlarına adekvat cavab vermək regional inkişafın bir hissəsinə çevrilmək, bu inkişafdan yararlanmaq perspektivi formalaşdırır. Bunun nəticəsidir ki, son 1 ildə Ermənistan ilə Azərbaycan arasında gedən müvafiq danışıqlar müəyyən pozitiv nəticələrə yol açıb. Xüsusilə, ikitərəfli komissiyaların aktiv şəkildə görüşməsi sülh prosesinə mühüm töhfələr qazandırıb. Dövlət sərhədlərinin müəyyənləşməsi, delimitasiya və demarkasiyanın həyata keçirilməsi sülh şərtlərindən biri kimi münasibətlərin normallaşmasına xidmət göstərir. Xüsusilə, hazırkı sülhlə bağlı açıq mətnli fikirlərin səsləndirildiyi bir dövrdə ikitərəfli danışıqlar formatı mövqelərin yaxınlaşmasında əsaslı rol oynadı. Vurğulayaq ki, Azərbaycan hər zaman sülhün və beynəlxalq hüququn tərəfdarı kim çıxış edib - hətta qalib olduğu halda, rəsmi Bakı ilk olaraq sülh təşəbbüsü ilə çıxış etdi. İndiki halda, bu istiqamətdə addımların davam etdirilməsi son sənədin ortaya çıxmasını şərtləndirib ki, bu kimi uğurlu nəticə də Azərbaycanın mövqeyinin düzgün olmasını növbəti dəfə sübuta yetirir. İllərdir ki, ikitərəfli təmasların yarada biləcəyi üstünlükləri önə çəkən dövlətimiz bunu əyani şəkildə ortaya qoyur. İndiki mərhələdə isə Ermənistanın atacağı addımlar sülhün daha da tezləşdirilməsinə yol aça bilər - bunun üçün ən əsas şərt rəsmi İrəvanın konstitusiyasında dəyişiklik etməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsi ilə bağlı qəti mövqe sərgiləməsi, Azərbaycana qarşı olan əsassız torpaq iddialarından əl çəkməsi və sülhün, sabitliyin davamlı, əbədi olmasına şərait yaratmasıdır.

### Beynəlxalq diqqət, ikitərəfli təmaslar...



Bütün bunlarla yanaşı, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən uğurlu proses qlobal miqyasda diqqət mərkəzindədir. Bunu istər region üçün perspektivdə gözlənilən əməkdaşlıq platformalarına münasibət, istər bölgənin siyasi-hərbi reallıqlarına qarşı yanaşmalar, istərsə də danışıqlar prosesinə olan maraq, eyni zamanda ortaya qoyulan mövqelər də təsdiqləyir. Artıq aylardır ki, vasitəçisiz davam edən ikitərəfli təmasların verdiyi nəticələr həm təqdir olunur, həm də bu prosesin daha da inkişaf etdirilməsinə maraq diqqətə çatdırılır. Bu məqam onu təsdiqləyir ki, artıq beynəlxalq aləm bölgədə əbədi və dayanıqlı sülhün bərqərar olmasını istəyir - bu istiqamətdə atılan addımların ortaya qoyulan səylərlə daha effektiv olacağını düşünür.

Amma bu, birmənalı olaraq ikitərəfli təmasların ortaya qoyduğu nəticədir. Bəzən bu vacib, region üçün əvəzsiz uğura sahiblənmək kimi halların baş verməsi də başadüşüləndir - məsələn, ABŞ Dövlət katibi Marko Rubio prezident Donald Trampın kabinetinin iclasında bildirib ki, Azərbaycan və Ermənistan arasında tezliklə sülh sazişi bağlanacağına ümid edir. ABŞ Dövlət Departamentinin nümayəndəsi Tammi Bryus Azərbaycan və Ermənistan arasında sülh danışıqlarına dair Dövlət katibi Marko Rubionun açıqlamasını şərh edib. O, rəsmi Vaşinqtonun danışıqlarda əldə olunan irəliləyişlərdən məmnun olduğunu bildirib.

Bryusun sözlərinə görə, ABŞ danışıqlarda bir sıra məsələlərin həllində birbaşa iştirak edir və bu, Vaşinqtonun regional sülhə verdiyi dəstəyin göstəricisidir.

"Bu, dövlət katibinin vacib bir açıqlaması idi. Biz əldə olunan razılaşmalar, atəşkəsin davamlılığı və müsbət dəyişikliklərlə bağlı məmnunluğumuzu bildiririk. Dövlət katibinin bunu demək üçün əsasları var və ətraflı məlumat aldıqdan sonra onları da sizinlə bölüşəcəyik," - deyə Tammi Bryus vurğulayıb.

Həqiqətdir ki, təxminən bir müddət davam edən vasitəçilərin iştirakı ilə təmaslar gözlənilən effekti verməmişdi - təbii ki, ABŞ-ın sülhlə bağlı ortaya qoyduğu mövqe anlaşılandır və dəyərləndirilir. Qlobal dünyada baş verənlər və onun təhlili mütləq şəkildə maraqların uzlaşması kontekstinə istinad edir - başqa sözlə, yaranan yeni siyasi-iqtisadi situasiyalar bu və ya digər şəkildə beynəlxalq aləmin diqqətindən yayınmır. Xüsusilə, Donald Trampın prezident seçilməsinin ardından ABŞ-ın münaqişələrin həllinə baxışı dəyişib - daha konservativ, daha praqmatik və sülhpərvər istiqamət alıb. Təsadüfi deyil ki, ABŞ rəsmiləri vaxtaşırı fərqli münaqişə bölgələrinə səfərlər edir, tərəflər arasında təmas formalaşdırır, hətta atəşkəs üçün səy göstərirlər.

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi isə bu qəlibdən daha fərqlidir - danılmazdır ki, mühüm siyasi-iqtisadi, ticari geocoğrafi məkan kimi xarakterizə olunan Cənubi Qafqazın Şərq-Qərb, Şimal-Cənub strateji xətləri üzrə qovuşma imkanları sülh prosesinin ən vacib detallarındandır. İki dövlət arasında əldə olunacaq razılıq qlobal ticari münasibətlərdə yeni səhifə açacaq. Eyni zamanda, yeni situasiyaya uyğun olaraq möhkəmlənən ticari əlaqələr həm də geopolitik təhlükəsizlik meyarının daha da oturuşmasına yol açacaq.

***P.İSMAYILOV***

# Azərbaycan heç bir ölkə üçün təhdid deyil!

## Bakı Cənubi Qafqazın inkişafı, əməkdaşlığı üçün sabit gələcək formalaşdırır

Müstəqil xarici siyasət kursuna malik olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş, güclü və nüfuzlu aktor kimi tanınır. Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət kimi çıxış edən ölkəmiz özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji təhlükəsizliyinə fundamental töhfələr verməkdə və regional miqyaslı, qlobal xarakterli əməkdaşlıqlar platformasının mərkəzi oyunçusu rolunu oynamaqdadır. Xüsusilə, 44 günlük müharibədə əldə edilmiş Zəfərin ardından Azərbaycan həm bölgənin sabitləşdirici faktoru, həm iqtisadi tənzimləyicisi, həm də yeni dövrün inkişaf trayektoriyasını müəyyənləşdirən strateji yol xəritəsinin müəllifi qismində çıxış edir. Heç bir beynəlxalq qurumdan və milli dövlətdən asılı olmayan Azərbaycan artıq regional aktordan qlobal strateji tərəfdaşa çevrilir - bütün bunların nəticəsidir ki, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemi və dünya siyasətinin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməkdədir. Ölkəmiz Qoşulmama Hərəkatına uğurlu rəhbərlik nümunəsi yaratmaqla yanaşı, son dövrlərdə Qlobal Cənubun inkişafı prosesində fəal iştirakçı kimi yer alır.

### Ölkəmiz yaxın qonşuluq əlaqələrinə üstünlük verir...

Qeyd edildiyi kimi, həyata keçirilən rasional və praqmatik xarici siyasət kursu sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun, xüsusilə Cənubi Qafqazın hərbi-siyasi, iqtisadi, ekoloji təhlükəsizliyinin təmin olunmasına fundamental strateji töhfələr bəxş edən regional güc mərkəzi kimi dəyərləndirir. Bu isə ona dəlalət edir ki, Azərbaycan regionun təhlükəsizlik qarantı və inkişaf mənbəyi qismində çıxış edir. Təsadüfi deyil ki, ölkəmiz qarşılıqlı münasibətlərdə, qonşuluq əlaqələrində ləyaqətli tərəfdaşlığa, beynəlxalq hüququn prinsiplərinə və ən əsası bərabərhüquqlu əməkdaşlığa istinad edir. Azərbaycan az-az ölkələrdəndir ki, hərbi münaqişələrin sülh və danışıqları yolu ilə tənzimlənməsini arzulayır, bitərəfliyini qoruyur, sabitliyin bərpası üçün səy göstərir və təhdid, təhlükə formalaşdırmır. Yeri gəlmişkən, ötən ay İsrail ilə İran arasında baş verən hərbi toqquşma zamanı da bir sıra dezinformasiyalar yayılmışdı - bəzi İran və Ermənistan saytları İsrailin guya Azərbaycan ərazisindən pilotsuz uçuş aparatları və raketlər vasitəsilə İrana zərbələr endirdiyini iddia etmişdi. Lakin bu xəbərlərin əsassız olması faktı bir daha öz təsdiqini tapıb və bu ittiham İranın birinci şəxsi tərəfindən təkzib olunub. Belə ki, İran Prezidenti Məsud Pezeşkian İsrailin guya Azərbaycan ərazisindən istifadə edərək İrana hücumlar həyata keçirməsi ilə bağlı iddialara son qoyub. O, bu barədə amerikalı jurnalist Taker Karlsona verdiyi müsahibəsində danışıb: "Təhlükəsizlik orqanlarımız qonşu ölkələrlə sionist rejim arasında hərbi əməkdaşlıqla bağlı heç bir fakt qeydə almayıb. Bu söz-söhbətlərin əsası yoxdur", - deyə İran Prezidenti vurğulayıb. Pezeşkian əlavə edib ki, əksinə, bəzi region ölkələri rəsmi şəkildə İrana dəstək göstərib və ərazilərinin Tehrana qarşı istifadə edilməsinə yol verməyəcəklərini bəyan ediblər.

### Regional təhlükəsizliyin qorunması...

Qeyd olunduğu kimi, Azərbaycan nəinki region ölkələri, ümumiyyətlə dünyanın heç bir ölkəsinə qarşı hansısa təhdid formalaşdırmayıb. Bizim bütün hallarda ortaya qoyduğumuz mövqe sülhə əsaslanır, əməkdaşlığa söykənir, təhlükəsizliyin təmininə hədəflənir. Paralel olaraq İrana münasibətdə də mövqeyimiz aydın, dəyişməz və qətidir - Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Dövlət başçısı bildirib ki, biz heç vaxt öz ərazimizdən qonşu ölkələrə, o cümlədən İrana qarşı təhdidlərin yaranmasına imkan verməyəcəyik. Rəsmi Bakı bütünlüklə öz davranışlarında bu tezisləri təsdiqləyib və ötən dövrdə nəinki İran, digər region dövlətinə qarşı da heç bir təhdid və ya təhlükə formalaşdırılmayıb. Azərbaycanın milli təhlükəsizlik doktrinası sayılan və 2007-ci ilin mayında Prezident İlham Əliyev tərəfindən imzalanan Milli Təhlükəsizlik Konsepsiyamızda bu amil xüsusilə vurğulanır. Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında qonşu ölkələrə qarşı öz ərazisindən təhdid formalaşdırılması yolverilməz sayılır. Beləliklə, Azərbaycanın rəsmi şəkildə hansısa region ölkəsinə təhdid yarada biləcək addım atmayacağı ortadadır. Bu müddəalar göstərir ki, Azərbaycan həm fərdlər, həm də qruplar səviyyəsində qonşulara qarşı yönələn düşmənçilik təşəbbüslərinin formalaşmasına əngəl qoyur. Yəni, öz ərazisindən hər hansı təhdid və ya təhlükə hazırlanmasını qəti şəkildə qəbul etmir, buna imkan vermir.

### Zəngəzur dəhlizi və qərbi azərbaycanlıların fundamental hüququ...

Bəzən bu kimi səhv düşüncələr, qənaətlər ümumən regionun inkişaf prosesinə mənfi çalarlar gətirir, hətta bəzi məqamlarda tormozlayıcı funksiya daşıyır. Bir məqamı unutmaq olmaz ki, ölkəmiz hələ təcavüzə və işğala məruz qaldığı dövrdə belə sülhpərvər mövqeyindən çəkilməyib. Məsələn, biz hər zaman artıq tarixə qovuşmuş Qarabağ məsələsinin danışıqlar yolu ilə həllinin tərəfdarı kimi çıxış etmişik. Ermənistanın qeyri-konstruktiv mövqeyi, sülhdən yayınması, yeni işğallarla bağlı bəyanatlar səsləndirməsi Azərbaycanı alternativ üsullara əl atmağa, ərazi bütövlüyünü və suverenliyini hərbi yolla təmin etməyə sövq etdi. Amma müharibə dövründə də Azərbaycan dəfələrlə Ermənistanı torpaqlarımızı azad etməyə, müharibəni dayandırmağa və işğal faktını sonlandırma çağırdı - təəssüf ki, bu çağırışlar gec təsir göstərdi və sonunda Ermənistan dərk etdi ki, Azərbaycan öz gücü və qətiyyəti ilə torpaqlarını işğaldan azad edəcək. Həmin dövrdə Prezident İlham Əliyev dəfələrlə bildirmişdi ki, başqa dövlətin torpağında gözümüz yoxdur - hətta buna imkanımız və gücümüz çatırdı. Amma biz hər hansı bir işğal faktı həyata keçirmirik.



Bu gün Ermənistanın kommunikasiyaların, xüsusilə də Zəngəzur dəhlizinin açılması prosesini ləngitməyə çalışması da məhz bu kimi əsassız şübhələrdən doğur. Ermənistanın davranışı nəticəsində müharibədən sonra regionun simasını, iqtisadi dayaqlarını əsaslı şəkildə inkişaf etdirmək iqtidarında olan əməkdaşlıq platforması gecikir. Ən əsası isə rəsmi İrəvanın sərgilədəyi bu mövqe indiki halda ən böyük zərbəni elə Ermənistana vurur. Çünki regionda əməkdaşlığın inkişafı, iqtisadi əlaqələrin genişlənməsi, kommunikasiyaların açılması sosial böhran içində boğulan Ermənistan üçün hava-su kimi vacibdir. Ermənistan hakimiyyəti öz xalqına yalan informasiyalar verir, yalan üzərində təbliğat aparır. Onlar təlqin etmək istəyirlər ki, guya Azərbaycan Zəngəzur dəhlizinin keçdiyi əraziləri özünə qatmaq fikrindədir. Azərbaycan dövləti heç bir zaman belə bir iddia irəli sürməyib. Bu, yalan birmənalı olaraq Ermənistan cəmiyyətini çaşdırmağa yönəlib. Azərbaycanın digər ölkələrin torpaqlarında gözü yoxdur. Düzdür, Zəngəzur tarixi Azərbaycan torpağıdır və onun Qərb hissəsinin vaxtilə Ermənistana birləşdirilməsi tarixi ədalətsizlikdir. Amma Zəngəzur dəhlizinin reallaşması bu kontekstdə izah oluna bilməz. Eyni fikirləri, Qərbi Azərbaycandan olan şəxslərin öz dədə-baba yurdlarında yaşamaq hüququnun tanınması kontekstində də səsləndirmək olar. İstər beynəlxalq konvensiyalara görə, istərsə də tarixi faktlara və ədalətə söykənərək öz torpağında yaşamaq hüququ tələb edən Qərbi Azərbaycandan olan və uzun illər boyu didərginlik həyatını, torpaqlarından qovulmanı, Ermənistan tərəfindən diskriminasiyanı yaşayan azərbaycanlılar heç də Ermənistan üçün təhdid sayıla bilməz - yüz minlərlə azərbaycanlı öz evində, doğulduğu ərazilərdə yaşamaq hüququ tələb edir. Bu isə onların fundamental haqqıdır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna, eləcə də yüksək beynəlxalq nüfuza malik olan milli dövlətə çevrilib - ölkəmiz bütün gücünü regional inkişafa hədəfləyib.

***Pərviz SADAYOĞLU***

# Lyanyunqan-Bakı marşrutu...

## Avrasiya məkanında daha rəqabətqabiliyyətli nəqliyyat bağlantısı

Müstəqil Azərbaycanla dünya nəhəngi Çin arasında qarşılıqlı maraqlara əsaslanan əlaqələr yüksək dinamika ilə inkişaf edir. İki ölkə arasında imzalanan Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanatın mətninə nəzər yetirdikdə, burada ikitərəfli əlaqələrin geniş gündəliyini görmək mümkündür. O cümlədən ölkələrimiz arasında ticarət dövriyyəsinin artması məmnunluq doğurur. Çin Azərbaycanın idxal baxımından bir nömrəli və ticarət dövriyyəsi baxımından 4-cü tərəfdaşıdır.

Nəqliyyat-logistika sahəsi isə iki ökə arasında genişlənən əməkdaşlığın prioritet istiqamətini təşkil edir. Elə bugünlərdə "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) nümayəndə heyətinin Çinə işgüzar səfəri baş tutub.

### Azərbaycanla Çin arasında nəqliyyat-logistika sahəsində genişlənən əməkdaşlıq

Bəhs olunan Birgə Bəyanatın gündəliyinə uyğun olaraq Azərbaycanla Çin arasında dərinləşən münasibətlərin mühüm bir seqmentini nəqliyyat-logistika sahəsində əməkdaşlıq təşkil edir. Məlumdur ki, artan geosiyasi gərginliklər fonunda ölkələr və regionlar arasında şaxələndirilmiş nəqliyyat bağlantılarının qurulmasının aktuallığı heç vaxt olmadığı qədər artıb. Hazırda Avrasiya məkanında bir sıra marşrutlar ciddi təhdidlər altındadır. Şimal və Cənub marşrutlarının faktiki olaraq bloklandığı bir şəraitdə əlverişli coğrafi yerləşməyə, müasir nəqliyyat infrastrukturuna malik olan Azərbaycan və ölkəmizin əsas həlqəsini təşkil etdiyi Orta Dəhliz (Transxəzər marşrutu) Avrasiya ölkələrinin və daşıma şirkətlərinin diqqətini özünə çəkir.

Çində də Azərbaycan üzərindən keçən Orta Dəhlizin önəmi yüksək dəyərləndirilir. Bu ölkə 10 il bundan əvvəl Avrasiyada infrastrukturun yaradılmasına və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" layihəsini elan edib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir. Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. 2019-cu il yanvarın 22-də isə Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sessiyada iştirak ediblər. Hazırda respublikamız yaratdığı müasir infrastrukturla "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi önəmli infrastruktur layihələri "Bir kəmər, bir yol" təşəbbüsü və ümumilikdə, regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. BTQ dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb. Bu, o deməkdir ki, Çindən daşınan yüklər iki həftə müddətində Azərbaycandan keçərək Avropaya çatır. Bakı-Tbilisi-Qars layihəsi həm də Azərbaycanın dəmir yolu nəqliyyatı sahəsində çox mühüm rol oynadığını nümayiş etdirir. Yeri gəlmişkən, Çinin təşəbbüsü ilə Orta Dəhlizin dəmir yolu seqmentinin inkişaf etdirilməsi layihəsinin icrasına start verilib. Söhbət Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu bağlantısının təmin edilməsindən gedir. Yeni layihə də Xəzər dənizi vasitəsilə Azərbaycana istiqamətlənib.



Təbii ki, Azərbaycanla Çin arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq imkanları daha böyükdür. Bu məqsədlə tərəflər dayanmadan intensiv şəkildə iqtisadi dialoq və qarşılıqlı biznes tədbirləri təşkil edir, investisiya və ticari təşviqləri artıran təşəbbüslər irəli sürürlər.

Yuxarıda bəhs olunan səfər çərçivəsində ADY nümayəndələri Çinin nəqliyyat-logistika şirkətləri ilə görüşlər keçiriblər. ADY sədri Rövşən Rüstəmov Çinin CRRC ("China Railway Rolling Stock Corporation") korporasiyasının vitse-prezidenti Fanq Fenq və korporasiyanın Çjuçjou lokomotiv istehsalı şirkətinin sədri Van Qiaolinlə keçirilən görüşlərdə Azərbaycanın beynəlxalq nəqliyyat-logistika zəncirində rolunun artması ilə əlaqədar olaraq, yük daşımalarının etibarlı və təhlükəsiz təmin edilməsi üçün lokomotiv parkının yenilənməsi və genişləndirilməsinə, CRRC ilə bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsinə xüsusi əhəmiyyət verildiyini qeyd edib. Həmçinin Çindən 7 ədəd yeni lokomotivin alınması ilə bağlı cari ilin aprel ayında imzalanmış sazişin təfərrüatları, ADY mütəxəssisləri

### Yeni dəmiryolu bağlantısının yaradılması gündəmdə

üçün təlim kursları və texniki treninqlərin təşkili, texniki həllər, istehsalat imkanları, təcrübə mübadiləsi kimi məsələlər müzakirə olunub.

Səfər çərçivəsində Lyanyunqan Limanının rəhbəri Van Qoi Çao ilə görüşdə ADY-nin bu limanla əməkdaşlığının Şərq və Qərb arasında, xüsusilə Orta Dəhliz çərçivəsində nəqliyyat bağlantısının inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Hazırda Çin və Azərbaycan arasında yükdaşımalarda ciddi artım dinamikası müşahidə olunur. 2024-cü ildə Çindən 287 blok-qatar qəbul edilib, bu ilin 6 ayı ərzində bu göstərici artıq 199 blok-qatar təşkil edib. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. Bu mənada, Lyanyunqan-Bakı marşrutu üzrə müntəzəm dəmiryol xidmətinin təşkilinin prioritet istiqamətlərdən biri olduğuna diqqət çəkilib.

Bu yaxınlarda Bakı Beynəlxalq Dəniz Limanı rəsmi olaraq ADY-nin strukturuna inteqrasiya olunub. Bu addım liman-dəmiryol əməliyyatlarının daha səmərəli koordinasiyasına və beynəlxalq tərəfdaşlara kompleks və optimallaşdırılmış logistika xidmətləri təqdim etməyə imkan verir.

Bakı Limanı Asiya və Avropa arasında yük axınının təmin edilməsində vacib rol oynayır. Hazırda limanın yükaşırma gücü ildə 15 milyon ton, o cümlədən 150 min TEU konteyner təşkil edir. Gələcəkdə isə limanın ümumi gücünün ildə 25 milyon ton, o cümlədən 500 min ton TEU konteyner olacağı nəzərdə tutulur.

Van Qoi Çao deyib ki, Lyanyunqan Limanı təkcə Çin deyil, Yaponiya və Koreya məhsullarının da ixracını həyata keçirir, bu da marşrutun əhəmiyyəti və yükdaşıma coğrafiyasını genişləndirir. O əmin olduğunu bildirib ki, qarşılıqlı fəaliyyət nəqliyyat əlaqələrin möhkəmləndirilməsinə və Lyanyunqan-Bakı marşrutunun Avrasiya məkanında daha rəqabətqabiliyyətli olmasına imkan verəcək.

"China Railway Container Transport Corp. Ltd." (CRCT) şirkətinin prezidenti Yan Binlə görüşdə isə ADY sədri Rövşən Rüstəmov CRCT-nin Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmiryol qurumları arasında Orta Dəhlizin inkişafı üzrə yaradılmış "Middle Corridor Multimodal Ltd." birgə müəssisəsinə qoşulmasının əhəmiyyətini qeyd edib. Bildirilib ki, CRCT-nin birgə müəssisənin işində aktiv iştirakı regionun logistika üzrə əlaqələrini, Orta Dəhliz boyunca şirkətlərin rolunu gücləndirəcək və marşrutun səmərəliliyini artıracaq.

Görüşdə Orta Dəhliz üzrə yükdaşıma həcmlərinin artırılması potensialının olduğu bildirilib. Çin-Azərbaycan-Çin istiqamətində konteyner daşımaları həcminin çoxaldılması və logistikanın optimallaşdırılması məqsədilə rəqəmsal həllərin tətbiqi, 2025-ci ilin ikinci yarısında göndərişlərin artırılması üçün fəaliyyət planının razılaşdırılması, liman-dəmiryol infrastrukturunun inteqrasiyası kimi mühüm məsələlər müzakirə olunub.

***MÜBARİZ***

Bizim müsahib

# "İki sahil" keçdiyi şərəfli yolla müstəqilliyimizin bərpasının 34 illik tarixinə bələdçilik edir



## Müsahibimiz Milli Məclisin deputatı, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadədir

**-Vüqar müəllim, çoxsaylı mətbu orqanlar arasında özünəməxsus yeri olan "İki sahil" qəzeti 34 yaşını qeyd edir. Ötən 34 ilin zirvəsindən dönüb geri baxanda qəzetin keçdiyi yolu necə şərh edərdiniz?**

- "İki sahil" qəzetinin ilk nömrəsinin çapdan çıxmasından ötən 34 il zaman baxımından çox böyük olmasa da bu illərin hər birinin qəzetimizin tarixinə yazdığı möhtəşəm səhifələr sanki bir əsrə bərabər yol keçildiyini təsdiqləyir. Əvvəlcə onu vurğulayım ki, "İki sahil"in yarandığı dövrün reallıqları ilə bugünümüzü müqayisə etdikdə çox çətin, eyni zamanda, şərəfli yol keçdiyimizi, xüsusilə qəzetin fəaliyyətə başladığı ilk illərdə əvvəlki hakimiyyətlər tərəfindən yaradılan manelərə sinə gərərək heç zaman tutduğumuz yoldan, əqidəmizdən dönmədiyimizi böyük qürur hissi ilə qeyd edirik. Təbii ki, ilk addımlarımız ciddi çətinliklərlə müşayiət olunsa da sonrakı illərdə qazandığımız uğurlar artıq çoxdan tarixə qovuşmuş həmin anları bu gün qürur hissi ilə xatırlamağımıza stimul verir. Çünki biz "İki sahil"çilər ilk gündən müəyyənləşdirdiyimiz hədəfə söykənərək yola çıxmışdıq. Şübhəsiz, hələ müstəqilliyini bərpa etməmiş, zamanın sərt, amansız burulğanlarının məngənəsində çabalayan odövrkü Azərbaycanın reallığında qət etməli olduğumuz yolun heç də hamar olmayacağını yaxşı bilirdik. Onu da yaxşı bilirdik ki, xaosun, anarxiyanın, özbaşınalığın meydan sulladığı həmin dövrdə bütün çətinlikləri göz altına almalı, hədəfimizə çatmaq üçün fədakarlıq, böyük cəsarət nümayiş etdirməliyik. "İki sahil" məhz bu cəsarəti, fədakarlığı nümayiş etdirdi. Yenə də təkrar edirəm ki, 1991-ci ilin 10 iyul tarixində qəzetimizin ilk nömrəsi işıq üzü görəndə Azərbaycan hələ dövlət müstəqilliyini bərpa etməmişdi. Daim tariximizin faciəli səhifəsi kimi vərəqlənən, SSRİ məkanında senzuranın tüğyan etdiyi həmin illərdə hansısa müttəfiq respublikada, o cümlədən Azərbaycanda müstəqil mətbuatın yaranıb fəaliyyət göstərməsindən danışmaq sadəcə, çox çətin idi. Belə bir çətin şəraitdə qəzetimizin nəşrə başlaması, ilk nömrəsindən etibarən qazandığı hər bir uğur kollektivimizin birliyinin, bütün qüvvə və bacarıqlarını vahid amala, istəyə yönəltmələrinin nəticəsidir. Dövlətçiliyimizin möhkəmlənməsinə töhfə vermək, müasir müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsinə, həqiqətlərimizin təbliği hər zaman əsas amalımız olub. 34 il əvvəl eyni amal, eyni məqsəd, eyni məramla çıxdığımız yola bundan sonra da davam etdirəcəyik. Qəzetimizin keçdiyi 34 illik şərəfli yol dövlət müstəqilliyimizin bərpasının 34 illik tarixinə bələdçilik edir. Biz "İki sahil" olaraq müstəqillik tariximizin ayrı-ayrı dövrlərinin təbliği missiyasını şərəflə yerinə yetirərək oxucu auditoriyasını günbəgün genişləndirdik. Bir an belə unutmuruq ki, oxucu sevgisini, inamını qazanmaq hər bir mətbu orqanın fəaliyyətinin əsas stimulverici amilidir.

**- Vüqar müəllim, "İki sahil" qəzetinin Yeni Azərbaycan Partiyasının ideoloji fəaliyyətinin həyata keçirilməsində iştirakını necə şərh edərdiniz?**

- Əvvəldə də qeyd etdiyimiz kimi, "İki sahil" qəzeti hər zaman Ümummilli Lider Heydər Əliyevin ideyalarının təbliğatçısı olub. Xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olan 91 nəfər ziyalının Ulu Öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" başlıqlı müraciəti "İki sahil" qəzetində dərc olunub. Yeni Azərbaycan Partiyasının yaranması zərurətini, bu siyasi qüvvənin təşkilatlanmasını, keçdiyi inkişaf yolunu geniş şəkildə işıqlandıran "İki sahil" daim tutduğu yola sadiqlik nümayiş etdirərək Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu, Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi Yeni Azərbaycan Partiyasının fəaliyyətinin təbliğində fəal iştirakı ilə diqqətdədir. Həm "İki sahil" qəzetinin baş redaktoru, həm də məşhur "91-lər"dən biri olaraq fəxrlə qeyd edirəm ki, Ulu Öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində müstəqilliyimizin ilk illərində yaşanan vəziyyəti təhlil edərkən həqiqətlərin təbliğində "İki sahil" qəzetinin rolunu yüksək qiymətləndirib. Ulu Öndər həmin müşavirədəki çıxışında bildirib ki, "İki sahil" qəzeti həqiqətlərin təbliğində çox böyük işlər görüb və Yeni Azərbaycan Partiyasına xidmət edir. Ümummilli Lider onu da qeyd etmişdi ki, Yeni Azərbaycan Partiyası olmayan zamanlarda da "İki sahil" qəzeti çox cəsarətli məqalələr yayımlayıb. Ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməklə "İki sahil" qəzeti yaxşı fəaliyyət göstərib.

Ümummilli Liderin "İki sahil"in fəaliyyətinə verdiyi bu yüksək qiymət hər zaman fəaliyyətimizin yol xəritəsidir, məsuliyyət hissimizi artıran əsas çağırışdır.

Ümummilli Lider Heydər Əliyev daim mətbuata böyük diqqət və qayğı ilə yanaşırdı. Bu il qəzetimizin mətbuatımızın 150 illik yubileyinə təsadüf edən 34 yaşı bizim üçün ikiqat bayram və sevincdir. Hər zaman jurnalistlərin dostu olan Ulu Öndər Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab edirdi. Bu gün cəmiyyətin güzgüsü kimi dəyərləndirilən Azərbaycan mətbuatı üzərinə düşən missiyanı uğurla yerinə yetirərək ictimaiyyətin informasiya tələbatının ödənilməsini təmin edir. Demokratik cəmiyyətin varlığının əsas göstəricisi olan azad mətbuatın inkişafına xüsusi diqqət yetirən Ümummilli Lider daim jurnalistləri obyektiv, qərəzsiz olmağa çağırırdı. Bu gün ölkəmizdə çoxlu sayda mətbu orqanın fəaliyyəti məhz bu sahəyə xüsusi diqqətin göstərilməsinin təsdiqidir. Çoxsaylı mətbu orqanlar arasında "İki sahil"in özünəməxsusluğunu qoruması, daim obyektiv, cəmiyyəti düşündürən məsələlərlə bağlı materialların dərcinə xüsusi yer verməsi qəzetin oxucu auditoriyasının genişlənməsini təmin edir. Əlbəttə, oxucu məhəbbətini necə qazandığımızı fəaliyyətimiz cavablandırır. Eyni zamanda, oxucu rəyi daim gələcəyə daha inamla addımlamağımıza əsas verir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin bu gün adını tarixə torpaqlarımızın xilaskarı kimi yazmasını şərtləndirən 44 günlük İkinci Qarabağ müharibəsi, həmçinin 2023-cü ildə bir günlük lokal antiterror tədbirləri mətbuatımızın üzərinə düşən missiyanı necə yerinə yetirdiyini bir daha nümayiş etdirdi. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq, unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoydu, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərdi, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratdı.

"İki sahil" Zəfər dastanına gedən yolun təqdimatında fəal iştirak edərək həm 44 günlük Vətən müharibəsi, həm də postmünaqişə dövrünün reallıqlarını faktlar əsasında ictimaiyyətə çatdırmasından böyük şərəf duydu. Hər gün tariximizə yazılan zəfərlərin müjdəçisi olmaqdan böyük xoşbəxtlik ola bilərmi? Bu xoşbəxtlikdən, şübhəsiz, "İki sahil"ə də pay düşdü.

Azərbaycanın hər bir uğuru, dövlətimizin uğurlu siyasəti "İki sahil" qəzetinin səhifələrində geniş təhlil edilərək dolğun şəkildə ictimaiyyətə çatdırılır. Tarixi Zəfərimizdən, şanlı Qələbədən sonrakı dövrün reallıqlarından böyük qürur hissi ilə bəhs edirik. Həyata keçirilən hər bir layihə bugünümüz və gələcəyimiz üçün önəmlidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri daim "İki sahil"in qürurla bəhs etdiyi tarixi məqamlar sırasındadır.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün artıq qalib, bütövləşən Azərbaycanın uğurlarından bəhs edirik. Tarixi Zəfərimiz bütün sahələrdə yeniliklərə, islahatlara yol açdı. İctimai-siyasi həyatımızda aparıcı rol oynayan, ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyasının tarixi Zəfərimizin reallıqları fonunda keçirilən VII qurultayı YAP-ın fəaliyyətində yeni mərhələnin başlanğıcı oldu. Yeni tərkib formalaşdı, yeni Nizamnamə qəbul olundu. Dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq yeni Proqram işlənib hazırlandı və 2021-ci ilin sonunda qəbul edildi. "Biz birlikdə gücləyük!" çağırışını özündə ehtiva edən yeni Proqram Yeni Azərbaycan Partiyasının bundan sonrakı fəaliyyəti üçün yol xəritəsi oldu. Partiyanın yeni Nizamnaməyə və Proqrama uyğun olaraq atdığı hər bir addım, rayon və şəhər təşkilatlarının gördüyü işlər "İki sahil" qəzetinin səhifələrində ardıcıl və geniş işıqlandırılır. Qəzetimizin hər bir əməkdaşı bundan böyük qürur hissi keçirir.

**-SOCAR-ın təsisçiliyi ilə fəaliyyət göstərən "İki sahil" ölkə iqtisadiyyatının inkişafında neft amilinin rolunu ictimaiyyətə necə təqdim edir?**

- Əvvəldə onu qeyd edim ki, artıq 34 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın bugünkü reallıqlarını düzgün dəyərləndirmək üçün təbii ki, müstəqilliyimizin bərpasının ilk illərinə nəzər salmaq bir zərurət kimi qarşıda dayanır. Müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycan Ermənistanın hərbi təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyinin itirmək təhlükəsi ilə qarşılaşmışdı. Taleyimizin həll olunduğu belə bir ağır zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi. Ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Ümummilli Liderin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Ulu Öndərin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin əsl sahibinə çevrildi. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Ümummilli Lider Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri oldu.

Bütün bu reallıqların təbliğində, ölkə ictimaiyyətinə çatdırılmasında "İki sahil" üzərinə düşən missiyanı şərəflə yerinə yetirdi və bu gün də həmin siyasətin Prezident İlham Əliyev uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın qazandığı uğurları böyük qürur hissi ilə təbliğ edir. Uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizin və suverenliyimizin tam bərpasının reallıqları fonunda Azərbaycanın sülh və əməkdaşlıq gündəliyinin müəllifi kimi rolundan, dünyaya ünvanladığı birlik, həmrəylik, sülh çağırışlarından, azad Qarabağın və Şərqi Zəngəzurun dirçəlməsindən geniş bəhs edən "İki sahil"in səhifələrində son beş ilin xoş ovqatı daha aydın görünür. Qəzetin hər nömrəsinin manşetinə çıxarılan çağırışların hər biri qalib, bütövləşən, yeni dövrə qədəm qoyan Azərbaycanın qarşıdakı dövr üçün hədəflərini açıqlayır. Düşünülmüş və gələcəyə hesablanmış siyasət Azərbaycanı biri-birindən möhtəşəm uğurlara doğru aparır.

Ümummilli Lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" çağırışı Azərbaycanın bugünkü reallıqlarında özünün aydın ifadəsini tapır. Müstəqil Azərbaycanın iqtisadi inkişafında və dünya birliyində layiqli yer tutmasında əhəmiyyətli rol oynayan neft hasilatı böyük tarixə malikdir. Bu gün Azərbaycanın iqtisadi inkişafında SOCAR-ın əhəmiyyətli rolu var. Azərbaycanın neft və qaz ehtiyatlarına malik olması SOCAR kimi nəhəng transmilli şirkətin yaranması zərurətini meydana çıxardı. Bu gün SOCAR neft və təbii qazın hasilatında, nəqlində, emalında və dünya bazarlarına çıxarılmasında mühüm funksiyanı yerinə yetirir. Hazırda SOCAR-ın uğurla həyata keçirdiyi layihələr onun modern beynəlxalq transmilli şirkət kimi nüfuz qazanmasında öz sözünü deyir. Yaradıcı kollektivimiz qəzetimizin təsisçisi olan SOCAR-ın çoxşaxəli fəaliyyətini daha geniş şəkildə ictimaiyyətə çatdırmağa çalışır və məmnunluq hissi ilə qeyd etməliyəm ki, bu məqsədinə nail olur. Ümummilli Lideri Heydər Əliyevin neft strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev təbii sərvətlərin beynəlxalq miqyasdakı əhəmiyyətini yüksək qiymətləndirərək artıq ölkəmizi dünyanın enerji təhlükəsizliyinin təminatında əsas söz sahibinə çevirib. Azərbaycanın hazırda etibarlı tərəfdaş kimi nüfuz qazanması neft strategiyasının uğurlu icrasının nəticəsidir. Bu gün Azərbaycan həm də dünya üzrə mühüm təbii qaz ixracatçısı kimi tanınır. Respublikamız hazırda 12 ölkəyə qaz ixrac edir. Təbii ki, bu, son deyil və həm ölkəmizin böyük potensiala malik olmasından, həm də səyləri birləşdirərək, təcrübə mübadiləsi apararaq əməkdaşlıq nəticəsində hədəflərə doğru inamla addımlamasından irəli gəlir.

"İki sahil" bu reallıqların təbliğatçısı kimi daim fəaliyyətini genişləndirir. "Əsrin müqaviləsi"nin davamı olaraq "Yeni əsrin müqaviləsi"nin imzalanması, Cənub Qaz Dəhlizinin tam tərkibdə istifadəyə verilməsi və sair biri-birindən əhəmiyyətli qlobal layihələrin həyata vəsiqə alması Heydər Əliyev siyasətinin Azərbaycana qazandırdığı uğurların təqdimatlarıdır. Qəzetimiz hər zaman bu uğurları izləməklə yanaşı, onları əsaslı şəkildə oxuculara çatdırır. Təbii ki, SOCAR-ın fəaliyyəti həm təsisçi olaraq, həm də ölkə iqtisadiyyatının inkişafına davamlı töhfələr verən transmilli şirkət olaraq bizim üçün önəmlidir. Hazırda qəzetin hər bir sayında SOCAR-la yanaşı, şirkətin bütün strtukturlarının gördüyü işlər geniş şəkildə təbliğ edilir.

**- Vətən müharibəsində Qələbəmizdən sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsini şərtləndirdi...**

-Bəli, tamamilə doğrudur. Media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılması və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılması əsas hədəflər sırasındadır. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin edir. Dövlətimizin başçısı İlham Əliyevin 2021-ci ilin yanvarında imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman medianın qarşısında yeni imkanlar açdı. Yeni "Media haqqında" Qanunun qəbulu dövrün müasir çağırışlarını özündə ehtiva edir ki, "İki sahil" qəzeti də bu çağırışların yüksək səviyyədə yerinə yetirilməsinə səy göstərir. Yeni çağırışlar, hədəflər inkişaf, tərəqqi deməkdir. Bu çağırışların yüksək səviyyədə cavablandırılması isə mətbu orqanlardan, eyni zamanda, jurnalistlərimizdən daha məsuliyyətli olmağı tələb edir. Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirir, rəqabət qabiliyyətini artırır. "İki sahil" də bu rəqabətdə öz yerini qorumağa, daha da möhkəmləndirməyə çalışır.

**- Bugünkü qəzet bolluğu şəraitində "İki sahil"in yerini qoruması hansı amillərə söykənir?**

-Özünəməxsusluq məsuliyyət hissini daim öndə saxlayır. Məsuliyyətli olmaq, peşəkarlığı artırmaq, gənclərin yaşlı nəslin təcrübəsindən bəhrələnməsinə geniş imkanlar yaratmaq əsas tələblərdəndir. Ən əsası odur ki, hər bir jurnalist mətbuatın başlıca prinsiplərini qorumalıdır. Obyektivlik, qərəzsizlik, vətənpərvərlik hissinin artırılması əsasdır.

**-Vüqar müəllim, bu gün hansı sahəyə müraciət etsək, gənclərin böyük çoxluq təşkil etdiyini görərik. Dövlətimizin siyasətində gənclərin malik olduqları potensialdan səmərəli istifadə etmək bir çağırış kimi qarşıda dayanır. "İki sahil" gənc yazarların inkişafına necə yol açır?**

- "İki sahil" daim yeniləşməyə, təkmilləşməyə maraq göstərir. Yeni dövrün yeni çağırışları olur ki, bu da öz növbəsində kadr məsələsini aktuallaşdırır. Təbii ki, hər il minlərlə məzunun olduğunu nəzərə alsaq, görərik ki, onlar arasında "İki sahil"i jurnalist fəaliyyətinin gələcəyi üçün ünvan seçənlər azlıq təşkil etmir. Təbii ki, nəzəriyyəni təcrübə ilə eyniləşdirmək mümkün deyil. Gənclərin biliklərini təcrübəyə tətbiq etmələri üçün yaşlı nəslin məsləhətlərinə, təcrübəsinə böyük ehtiyacı var. "İki sahil" bu sahədə bir məktəbdir. Bunu təbii ki, keçdiyimiz 34 illik yola söykənərək qeyd edirik. "İki sahil" nəinki peşəkar əməkdaşları ilə oxucuların görüşünə gəlib. Bundan daim böyük qürur hissi keçiririk. "İki sahil" qəzeti 34 illik tarixi ərzində böyük təcrübə əldə edərək, qarşıdakı illər üçün möhkəm uğurların təməlini qoyub.



# BMT-də “mandat” davası

## Erməni lobbisi hələ də ucuz kampaniyalar axtarışındadır

44 günlük Vətən müharibəsi ilə tarixin arxivinə göndərilən “Qarabağ münaqişəsi”nin bir qrup simulyant ermənipərəstlər tərəfindən ara-sıra yenidən “gündəmə” gətirilməsi halları müşahidə edilir. Qlobal mühit üçün heç bir maraq kəsb etməyən bu kimi cılız cəhdlərin arxasında isə bəzi hallarda ermənipərəst mərkəzlərin maliyyə fırıldaqları (sonradan üstü açılır), diaspordan “pul qoparmaq” istəyi və ya beynəlxalq ictimaiyyəti çaşdırmaq niyyəti dayanır. Erməni lobbisi bu yolla yenidən diqqət mərkəzinə düşmək istəyir. Məsələn, “Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası”nın İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov sosial şəbəkələrdə bildirib ki, erməni lobbisi və onun təsiri altında olan bəzi beynəlxalq QHT-lər BMT İnsan Hüquqları Şurasının “Dağlıq Qarabağ üzrə xüsusi məruzəçi” mandatının təsis olunması üçün növbəti kampaniyaya başlayıb. S.Məmmədov əlavə edib ki, anti-Azərbaycan mövqeyi ilə seçilən və BMT-nin İqtisadi və Sosial Şurasında (ECOSOC) assosiativ üzv olan “Christian Solidarity International” təşkilatı xüsusi canfəşanlıq göstərir. Qeyd edək ki, hazırda BMT İnsan Hüquqları Şurasının 14 ölkə üzrə belə mandatı fəaliyyətdədir - Əfqanıstan, Belarus, Burundi, Mərkəzi Afrika Respublikası, Kamboca, KXDR, Eritrea, İran İslam Respublikası, Mali, Myanmar, Fələstin, Rusiya, Somali və Suriya.

### Erməni lobbisinin yeni oyunu...

Maraqlıdır ki, Azərbaycanla bağlı belə bir “ehtiyac” haradan qaynaqlanır. Qarabağla bağlı hər hansı bir məruzəçi mandatının formalaşdırılmasının hər hansı bir hüquqi və ya məntiqi açıqlaması ola bilməz. Birincisi, Qarabağ adlı hansısa bir statuslu ərazi vahidi yoxdur - Azərbaycan Respublikasının ərazisində “Qarabağ İqtisadi Rayonu” var ki, bu da Azərbaycanın suveren və ayrılmaz ərazisidir. İkincisi isə, belə istəyə, arzuya düşmək Azərbaycanın ərazi bütövlüyünə qarşı cəhd sayılır - bu isə, beynəlxalq aktlarla yolverilməzdir. Azərbaycanın ərazi bütövlüyü hətta işğal illərində belə BMT strukturları tərəfindən rəsmi sənədlər, qətnamələr vasitəsilə təsdiqlənib.

Üçüncüsü isə, erməni lobbisinin bu davranışı birbaşa sülh prosesinə hədəflənib - onlar artıq son akkordları vurulan və nəticəyə doğru yol alan sülh danışıqları Cənubi Qafqazda tarixi bir mərhələ formalaşdıracaq. Erməni lobbisi isə bunu həzm etmək istəmir - onlar anlayırlar ki, Ermənistan rəsmi şəkildə özünün qondarma iddialarından geri çəkilən və qonşularına qarşı hər hansı bir təhlükə formalaşdırmayan zaman erməni lobbisinin fiaskosu rəsmiləşəcək. İllərlə min bir yalanla aldatdıqları erməni xalqı isə onlardan bunun hesabını soruşacaq. Beləliklə, bu kimi qondarma “mandatvermə oyunu” ilə yenidən hansısa arzularını “cücərtmək” istəyirlər. Amma artıq onların bu oyunları heç bir fayda və nəticə vermir. Nəzərə alsaq ki, Ermənistanın siyasi hakimiyyəti dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyib, Paşinyan özü rəsmən bu məsələni vurğulayıb, demək ki, atılan bu addım yalnız və yalnız ara qarış\



Adıçəkilən “Christian Solidarity International” (CSI) təşkilatı isə sözdə “xristianların hüquq müdafiəsi” sahəsində fəaliyyət göstərən və qərargahı İsveçrədə yerləşən qeyri-hökumət təşkilatıdır. 1977-ci ildə təsis edilmiş bu təşkilat özünün əsas məqsədi kimi “dünyada dini azlıqlara, xüsusilə də xristianlara qarşı yönəlmiş təqiblərə qarşı mübarizə aparmağı və onların hüquqlarını müdafiə etməyi” bəyan etsə də, fəaliyyət spektri tamam fərqlidir. Qeyd edək ki, təşkilatın fəaliyyəti əsasən Yaxın Şərq, Afrika və Cənubi Asiyada bir sıra “hesabatlar” hazırlamaq, guya xristianlara qarşı “zorakılıq” hallarını sənədləşdirmək üzərində qurulub.

### CSİ-nin ermənipərəst “xristian müdafiəsi”...

“Christian Solidarity International” daim Ermənistan və erməni maraqları ilə üst-üstə düşən mövqeləri ilə gündəmə gəlib. CSI uzun illər ərzində Qarabağdakı erməni əhalinin hüquqlarının guya pozulması ilə bağlı hesabatlar yayıb. Təşkilat 2020-ci il müharibəsindən sonra da Azərbaycanı “ermənilərə qarşı təcavüz”də günahlandıran bəyanatlar verib. Onlar Azərbaycanı “xristian erməni mədəni irsini məhv etməkdə” ittiham edən kampaniyalarda iştirak ediblər və UNESCO-nun bu məsələyə müdaxilə etməsinə çağırış ediblər. CSI bəzi hesabat və açıqlamalarında Qarabağda ermənilərin guya əsrlərlə “xristian azlıq” kimi təzyiqlərə məruz qaldığını iddia edir. Bu isə tarixi faktlarla və regionun siyasi-hüquqi görüntüsü ilə üst-üstə düşmür - bu təşkilatın əsl niyyəti ortadadır. Təsadüfi deyil ki, bu gün BMT ilə “mandat” davası aparan CSİ bu qurumun Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən qətnamələrinə münasibət bildirməkdən yayınır. İllərlə “Qarabağda yaşayan erməni ailələrinə yardım” adı altında erməni lobbisinin qara kassası kimi fəaliyyət göstərən təşkilat bir dəfə də olsun Ermənistanın işğalı nəticəsində öz evindən didərgin düşmüş azərbaycanlılara diqqət göstərməyib. Halbuki bu selektiv yanaşma “humanitar və dini azlıqların hüquqlarını qorumaq” kimi ümumi bəyanatlarla ziddiyyət təşkil edir.

Beləliklə, CSİ özünü “xristian dəyərlərinin və azlıqlarının müdafiəçisi” kimi təqdim etsə də, keçmiş “Qarabağ münaqişəsi” kontekstində açıq ermənipərəst mövqe sərgiləməkdə davam edir.

*SADİQ*

# “Moody’s” Azərbaycanın investisiya reytinqini yüksəltdi

“Moody’s Ratings” beynəlxalq reytinq agentliyi Azərbaycanın suveren kredit reytinqini “Ba1” səviyyəsindən “Baa3”-a (investisiya ) səviyyəsinə yüksəldərək proqnozu “müsbət” saxlayıb. Aparıcı 3 beynəlxalq kredit reytinq agentliyindən biri olan “Moody’s”in yaydığı məlumatda qeyd olunur ki, yeni reytinq üzrə müsbət proqnoz ölkədə davam etdirilən islahatların fonunda iqtisadiyyatın və fiskal sahənin neft-qaz sektorundan asılılıq gözləntilərinin azalmasını əks etdirir. Həmçinin, pul-kredit siyasətinin təkmilləşdirilməsi, maliyyə sektorunda tənzimləmələr, dövlət maliyyə idarəçiliyi və ictimai inzibati proseslərdə şəffaflığın artırılması istiqamətində aparılan islahatlar institusional idarəetmənin daha da yaxşılaşacağına əsas verir. Aşağı borc yükü və xalis aktivlərin mövqeyi ilə güclü hökumət balans hesabatı, həmçinin çox yüksək borc ödəmə qabiliyyəti ölkənin güclü tərəfləri olaraq qalır.

### Güclü fiskal mövqe, möhkəm makroiqtisadi sabitlik

Agentlik qeyd edir ki, Azərbaycanın güclü fiskal mövqeyi, möhkəm makroiqtisadi sabitliyin qlobal şoklar və neft qiymətlərinin dəyişkənlik dövründə davamlı olaraq qorunması fiskal dayanıqlığı daha da möhkəmləndirməkdədir. Müsbət proqnoz həmçinin hesabatlılıq sahəsində davam edən potensial inkişafı da əhatə edir. Xarici investisiyaların cəlb edilməsi istiqamətində səylər genişlənir, hüquqi və tənzimləyici çərçivələr üzrə islahatlar davam edir ki, bu da şəffaflıq və hesabatlılığın gücləndirilməsinə kömək edir.




“Moody’s”in qənaətinə görə, Azərbaycanın bölgədə nəqliyyat və “yaşıl enerji” mərkəzi kimi mövqeyini möhkəmləndirmək yönündə davamlı səyləri nəqliyyat-logistika, tikinti və turizm kimi qeyri-neft sektorlarında davamlı və əhəmiyyətli artımlara imkan verir. Əlverişli coğrafi mövqeyə malik olması və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta Dəhlizdə artan fəaliyyəti logistika sektorunda əlverişli nəticələr yaradacaq və iqtisadiyyatın digər sahələrinə müsbət təsir göstərərək böyük investisiyaları cəlb edəcəkdir. Eləcə də Qarabağ və Şərqi Zəngəzur bölgələrinin davamlı inkişafı iqtisadiyyatın şaxələndirilməsi istiqamətlərini güclü şəkildə dəstəkləyir. Bütün bunlar isə reytinqin yüksəldilməsində təsiredici rol oynayan başlıca amillər kimi çıxış etməkdədir.

### “Baa3” reytinqi nəyi ehtiva edir?

İlk öncə qeyd edək ki, qlobal iqtisadi mühitdə hələ də davam edən mürəkkəb geosiyasi risklər və qeyri-sabitlik şəraitində “Moody’s” tərəfindən Azərbaycanın reytinqinin “Baa3” investisiya səviyyəsində təsdiq olunaraq proqnozun “müsbət”də saxlanılması ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirir. Mövcud reytinq qiymətləndirməsi müəyyən edilərkən Azərbaycanın cari balansı üzrə göstəricilərə xüsusi diqqət yetirilib. Ölkəmizin maliyyə sektorunun həddindən artıq dözümlü olması, valyuta-bank sisteminin sağlamlığı, real sektorun bütün bölmələrində artım tempinin davam etməsi həyata keçirilən makroiqtisadi siyasətin səmərəliliyini yüksəldib və böhranın bütün fazalarının ölkəmizə mənfi təsirlərinin qarşısının alınması milli valyutanın dəyərinin möhkəmlənməsinə əlverişli zəmin yaradıb. Belə ki, ötən il ticarət əməliyyatları üzrə balans müsbət dinamika ilə müşayiət edilib, cari hesabın profisiti ixracın müsbət saldosu hesabına böyüyüb. 2024-cü ilin sonlarında və 2025-ci ilin ötən aylarında neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, cari balans olduqca qənaətbəxş səviyyədə qalıb.

Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqi 2025-2026-cı illərdə də profisitlə davam edəcək. Bu vəziyyət suveren aktivlərin dayanıqlılığını da təmin edəcək. Belə ki, hazırda Azərbaycanın valyuta aktivləri 74 milyard dollara yaxınlaşıb və strateji ehtiyatların 80 faizi Dövlət Neft Fonduna (DNF) məxsusdur. Növbəti illərdə enerji gəlirlərinin sabitliyi fonunda DNF-nin investisiya portfelində rekord yüksək gəlirlilik qalacaq. Hazırda ölkənin strateji ehtiyatları ÜDM-in təxminən 70 faizini təşkil edir ki, bu da güclü təhlükəsizlik yastığı deməkdir. Azərbaycanın xalis aktivləri sabit qalacaq ki, bu da eyni qrup ölkələr arasında ən yüksək göstərici hesab oluna bilər. Bununla yanaşı, Azərbaycanın güclü maliyyə vəziyyətinin təmin olunmasında qeyri-enerji amillərinin də təsiredici rolu az deyil. Belə ki, Azərbaycanda neft hasilatı həcmlərinin azaldılması və enerji gəlirlərinin əvvəlki illərə nisbətən aşağı düşməsinə baxmayaraq, qeyri-neft sektorunun güclü artımı ilə maliyyə gəlirlərinin artımı kompensasiya edilib ki, bu da büdcə xərclərinin neft daxilolmalarının azalması və digər mənbələr hesabına stimullaşdırılmasına səbəb olub. Bu tendensiyanın qarşıdakı illərdə davam edəcəyi gözlənilir ki, bu da maliyyə sabitliyinin qeyri-neft dayaqları üzərində köklənməsinə işarədir. Bu xüsusda növbəti illər ərzində Azərbaycanın fiskal və tədiyyə balansının müsbət səviyyəsi dəstəklənəcək.

“Moody’s”in reytinqi həm də ona dəlalət edir ki, Azərbaycanın güclü milli valyuta ehtiyatları və suveren fondları milli valyutanın sabitliyi üçün də dayanıqlılığı təmin edir. Yəni mövcud ehtiyat portfeli manatın xarici valyuta qarşısında məzənnəsinə ciddi təsir və təzyiq edəcək amilləri tamamilə neytrallaşdırır.

### “Fitch Ratings” agentliyinin “BB+” reytinqi

Yeri gəlmişkən, bir müddət əvvəl “Fitch Ratings” agentliyi də Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqini “BB+” səviyyəsində, müsbət proqnozla təsdiqləyib. Təşkilatın hesabatında bildirilir ki, Azərbaycanın çox güclü xarici balansı və fiskal mövqeyi, aşağı dövlət borcuna malik olması və suveren fondun (Dövlət Neft Fondu) böyük aktivlərinin dayanıqlılığı yüksək maliyyə çevikliyini dəstəkləyir ki, bu da sabit reytinq göstəricisinin müəyyən edilməsində əsas faktorlardır. Eləcə də Azərbaycanın tədiyyə balansının cari balansı, iqtisadi artımın əldə olunması, xarici maliyyə öhdəliklərinin çevik idarə olunması və digər amillər də ölkəmizin reytinq üzrə proqnozunun sabitliyini şərtləndirib. Agentliyin proqnozlarına görə, Azərbaycan manatının məzənnəsi ortamüddətli perspektivdə indiki nisbətdə qalacaq və bu, həm də bəzi dairələrdə yayılan devalvasiya söhbətlərinin gerçəklikdən uzaq olmasını əsaslandırır. Manatın məzənnəsi 2027-ci ilədək sabit qalacaq. Bununla yanaşı, manatın sabit məzənnəsinin qorunması üçün ölkənin iqtisadi blokunun, ələlxüsus da Mərkəzi Bankın güclü təsiredici və tənzimləyici prioritetləri mövcuddur. Azərbaycan Mərkəzi Bankı valyuta məzənnəsinin dayanıqlılığını təşviq edən alətləri optimallaşdırır, xüsusilə də valyuta bazarını və bank faizlərini yaxşılaşdırmaq üçün tənzimləyici alətləri çevik şəkildə saxlayır.

*ELBRUS CƏFƏRLİ*

# Milli maraqlara bağlı insan



Ömrüm boyu böyük ziyalı, xalqın sevdiyi insan, görkəmli dövlət xadimi, diplomat... kimi tanıdığım Həsən Həsənov haqqında bu yazını yazmağa başlamamışdan əvvəl bir neçə gün əlimə qələm almağa cəsarət etmədim. Çox düşündüm. Azərbaycanda hamının tanıdığı şəxsiyyət haqqında mən nə yazım ki, ona layiq olsun. Doğrusunu deyim ki, yazı-pozu ilə məşğul olduğum 55 il müddətində belə çətinliyə düşməmişdim. Axı xalqın tanıdığı insanı xalqa necə təqdim edim?

Vikipediyaya baxdım, tərcümeyi-halını bir daha "vərəqlədim", "yaxşı bunlar da hər adam üçün əlçatandır, mən nədən başlayım?" - deyə çətinlikdən çıxmağa çalışdım. Bəlkə, hansı dövlət işlərində çalışdığından, keçdiyi şərəfli həyat yolundan bəhs edim?

1995-ci ildə 1-ci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçiləndə Həsən müəllim də millət vəkili seçilmişdi. O, həm də Azərbaycan Respublikasının Xarici İşlər naziri idi. Beləliklə, ilk yaxın tanışlığımız Milli Məclisdə oldu. Mənimlə elə görüşdü ki, sanki, çoxdan tanıdığı insanla görüşürdü. Çox səmimi, gülərüz insan kimi gördüm onu. İki il, həftədə iki dəfə Milli Məclisin iclaslarında görüşürdük...

Sonra mən Türkiyə Cümhuriyyətinin İstanbul şəhərinə Azərbaycan Respublikasının baş konsulu vəzifəsinə təyin olundum. Beləliklə, Həsən müəllim "mənim nazirim" oldu. Onunla görüşəndə müəyyən fikirlərimi söyləyirdim, səhv danışanda özünəməxsus şirin gülüşlə "Yox, elə deyil" - deyə düzəliş verirdi. Həsən müəllimdən heç vaxt irad eşitmədim, özümdən böyük kimi (10 yaş fərqimiz var) ondan daim nə isə öyrənməyə çalışırdım. Öyrəndiklərim diplomatik işimdə mənə çox kömək edirdi.

...Baş konsul kimi 10-15 gün idi ki vəzifəmin icrasına başlamışdım. Bizə xəbər verdilər ki, Azərbaycanın gəmisini borca görə bir neçə gündür ki, Mərmərə dənizində saxlayıblar. Gəmi heyətinin də bütün ərzağı qurtarıb. Dözülməz vəziyyət yaranıb. Konsulluğun bir əməkdaşı ilə dənizin ortasında saxlanılan gəmiyə getdik. Orada türk polisləri və Azərbaycan gəmi heyətinin qarşısında çıxış etdik. Dost, qardaş xalqlar olduğumuzu bir daha xatırlatdıq. Sonra masa başında birlikdə çay içdik. Türk polisləri əlaqəli təşkilatların rəhbərləri ilə danışdılar. Gəmini buraxmaq haqqında qərar qəbul edildi. Həmin gün gecə saat 2-də nazir Həsən müəllim mənə zəng edib, şifahi təşəkkürünü bildirdi. Baş verən əhvalat AzərTAC vasitəsilə yayımlandı...

Elə həmin ərəfələrdə bir gün konsulluqda yenicə işə başlamışdıq ki, dedilər Azərbaycan Xalq Cəbhəsi Partiyasının İstanbul universitetlərində oxuyan 30 tələbəsi konsulluğun qarşısında mitinq keçirmək üçün gəlib. Doğrusu, mən həmişə mitinqlərin əleyhinə olmuşam. Odur ki, heç nə fikirləşmədən əməkdaşlarımıza dedim ki, gedin, onların başçısını yanıma dəvət edin. Başçı gəldi. Soruşdum: "Nə istəyirsiniz?" Cavab verdi ki, biz istəyirik, Heydər Əliyev hakimiyyətdən getsin. Dedim, a bala, məni bura Heydər Əliyev göndərib! Onunla xeyli tərbiyəvi söhbət apardıqdan sonra başının dəstəsini də götürüb getdi. İndi yadıma düşür ki, 11 gün idi işə başlamışdım... Yenə həmin gün Həsən müəllim zəng vurub təşəkkür etdi. Bir daha hiss etdim ki, mən nazir tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşam.

Həsən Həsənov işlədiyi bütün dövlət vəzifələrində həmişə şərəflə çalışıb və xalqımız üçün böyük işlər görüb. 1990-cı il yanvar faciəsi ilə bağlı SSRİ rəhbərliyinə məktubunda bildirirdi: "Xalqın qanı töküldü, amma o qan bu torpağın azadlığı üçün töküldü! Azərbaycanın səbrini sınağa çəkmək xalqı daha da birləşdirdi".

Qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi kimi Dağlıq Qarabağ konfliktinə dair 4 qətnamənin qəbuluna nail olması Həsən Həsənovun xarici siyasətdə əhəmiyyətli rolunu göstərir. Müstəqil Azərbaycanın ilk Diplomatik pasport sisteminin əsasını Həsən Həsənov qoyub. "Azərbaycan diplomatiyası tarixi" kitabını yazıb.

Heç demə, Həsən müəllimin gözəl qələmi də varmış, o, dərin mənalı əsərlər də yazırmış. Bir gün gördüm ki, Akademik Milli Dram Teatrının qarşısında "Brüsseldən məktublar" tamaşasının afişası asılıb. Afişada müəllif kimi Həsən Həsənovun ad-soyadının yazıldığını görəndə təəccübləndim: Görəsən, Xarici işlər naziri Həsən Həsənovdur? Tamaşaya baxdım, çox təsirləndim. Səhv etmirəmsə, tamaşa haqqında mətbuatda resenziya da yazdım. Həsən müəllim yaddaşlardan silinməyəcək bir pyes yazmışdı, ona görə tamaşa da anşlaqla keçdi. O zaman öz-özümə fikirləşirdim: Həsən müəllimlə məni birləşdirən, doğma edən bəlkə də onun yaradıcılığı, qiymətli əsərlər yazmasıdır. Necə deyərlər, "ürəkdən-ürəyə yollar görünür"...

Bu yaxınlarda Həsən müəllimin türklərin tarixi, ənənələri, həyat tərzləri ilə bağlı bir yazısını maraqla oxudum. Bəli, Həsən müəllim həm də tarixçi alimdir. Çoxlu tarixi araşdırmaların müəllifidir. Bütün bunlar Həsən Həsənovun hərtərəfli biliyə malik bir insan olduğunu təsdiq etmirmi?

Sonralar Həsən müəllim müxtəlif ölkələrdə səfir oldu, harada işlədisə, Azərbaycanı ləyaqətlə təmsil etdi.

Son zamanlar Həsən müəllimlə müxtəlif tədbirlərdə görüşürük, telefonla əlaqə saxlayırıq.

Bir sözlə, mən Həsən müəllimlə həmişə fəxr etmişəm, onun adı gələndə şərəf duymuşam. Həmişə də ürəyimdə fikirləşirəm: Kaş, belə adamlar çox olaydı...

*Xeyrəddin QOCA,*
*yazıçı*

# Ankaradan Parisə tövsiyə...

Fransa Xarici İşlər Nazirliyinin Türkiyədə müxalifətə qarşı davam edən məhkəmə proseslərinə dair tənqidi bəyanatı Ankara tərəfindən narazılıqla qarşılanıb. Belə ki, Türkiyə Xarici İşlər Nazirliyi bu bəyanatı "ölkənin daxili işlərinə qəbuledilməz müdaxilə" adlandırıb. "Fransa Xarici İşlər Nazirliyinin ölkəmizdə aparılan məhkəmə proseslərinə müdaxilə olan bəyanatını qətiyyətlə rədd edirik", - deyə Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasında vurğulanır.

**Fransa ikili standartların girovluğunda**

Həqiqətən də, öz daxilində bir sıra şübhəli siyasi proseslər izlənilən, ötən il həm Avropa Parlamentinə, həm də Milli Assambleyaya seçkilərdə ciddi saxtakarlıqlar və manipulyasiyalar qeydə alınan, yeni hökumətin formalaşdırılması zamanı konstitusiyanın tələbləri kobud şəkildə pozulan bir ölkənin hakim komandası hansı mənəvi haqla və hüquqi əsasla digər bir suveren dövlətdə aparılan məhkəmə prosesini şübhə altına alır? İndiki mərhələdə Fransada baş verənlər Yelisey Sarayının demokratiyadan üz çevirdiyini əyani şəkildə təsdiqləyir. Fransanın Xarici İşlər Nazirliyi Türkiyəni müxalifət liderlərinə münasibətdə qınamağa özündə cəsarət tapıb. Bəs Parisdə bu yaxınlarda aparıcı müxalifət liderlərindən birinə siyasi sifariş əsasında qurulan saxta məhkəmə nə üçün unudulur? Cari ilin əvvəlində qurulan bu məhkəmə siyasi rəqiblərini məhkəmə qərarları ilə neytrallaşdırmaq texnologiyasının məhz Yelisey Sarayına məxsus olduğunu əyani şəkildə təsdiqləyir. Paris məhkəməsinin Fransada siyasi olimpə doğru inamlı addımlar atan və növbəti prezident seçkilərində hazırkı hakim komandaya potensial rəqib kimi dəyərləndirilən sağçı "Milli Birlik" Partiyasının parlament fraksiyasının rəhbəri Marin Le Penə qarşı çıxardığı antidemokratik qərar başqa izaha seçim qoymur. Əslində, geniş şərhə ehtiyac yoxdur. Aydın şəkildə görünür ki, hökm siyasətçinin 2027-ci ildə prezidentliyə namizədliyini irəli sürməsinə mane ola biləcək seçilmək hüququnun itirilməsini nəzərdə tutur.

Fransanın bu utancverici reallığı dünyanın bir sıra ölkələri, o cümlədən də ABŞ-ın yeni administrasiyası tərəfindən ciddi şəkildə qınanılıb və "demokratiyadan geri dönüş" kimi dəyərləndirilib. Fransanın hakim komandası Türkiyədə qurulan məhkəmədən narahatlığını bildirməkdənsə, özünün dünyada korlanmış imicini bərpa etmək üçün addımlar atmalıdır. Türkiyə XİN Fransanı ikili standartlarda ittiham edib. Nazirlik məhkəmədən sonra seçkilərdə iştirakdan kənarlaşdırılan Fransanın əsas müxalifət partiyasının liderinin son hökmünü, həmçinin bəzi Fransa merlərinə qarşı davam edən məhkəmə işlərini xatırladıb. "Nəzərə alsaq ki, Fransanın əsas müxalifət partiyasının lideri məhkəmə qərarı ilə həbs cəzasına məhkum edilib, bu bəyanat ikili standartları açıq şəkildə nümayiş etdirir", - deyə nazirlik qeyd edib.



**Məhkəmə suverenliyinə hörmətlə yanaşılmalıdır**

Hər bir ölkənin idarəçiliyi milli qanunvericilik əsasında tənzimlənir. Türkiyədə son iyirimi ildə inklüzivliyi təmin etmək məqsədilə bir sıra institusional islahatlar həyata keçirilib, o cümlədən daha geniş demokratiyanı, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını hədəfləyən bu islahatlar məhkəmə sistemini də əhatə edib. Türkiyə son prezident seçkiləri ilə dünyaya bir demokratiya dərsi keçdi. Lakin demokratiyanın anarxiya anlamında qəbul edilməsi heç bir vəchlə mümkün deyil. Kiminsə müxalifətdə olması onu qanunları pozmasının məsuliyyətindən azad etmir. Türkiyə "ədalətli və qərəzsiz" məhkəmə icraatına zəmanət verdiyini vurğulayıb və bütün işlərə müstəqil məhkəmələr tərəfindən ölkənin Konstitusiyasına və milli qanunvericiliyinə ciddi şəkildə və uyğun olaraq baxıldığını xatırladıb.

Ankara Parisi Türkiyənin məhkəmə suverenliyinə hörmət etməyə və digər ölkələrin işlərinə siyasi motivli şərhlərdən çəkinməyə çağırıb. "Fransaya Türkiyənin daxili hüquq sisteminə və məhkəmə sisteminin müstəqilliyinə hörmətlə yanaşmağı, başqa dövlətlərə qarşı siyasi motivli bəyanatlardan çəkinməyi və öz daxili problemlərinin həllinə diqqət yetirməyi tövsiyə edirik", - deyə Türkiyə Xarici İşlər Nazirliyi vurğulayıb.

*Mübariz FEYİZLİ*

# "Rotterdam" yüksək hərbi hazırlıq vəziyyətinə gətirilir

## Rusiya ilə NATO arasında birbaşa münaqişə ehtimalı varmı?

Rusiya və Ukrayna arasında atəşkəs razılaşması imkanlarının fiaskoya uğradığı bir şəraitdə tərəflərin bir-birinə hücumları artmaqdadır. ABŞ Prezidenti Donald Trampın bu müharibəni "24 saata həll edəcəm" vədi də reallığa çevrilmədi. Əksinə, onun təşəbbüsü ilə keçirilən görüşlər nəticəsiz qaldı. Son günlər ABŞ Prezidentinin Rusiyanın ünvanına tənqidlər səsləndirməsi və Ukraynaya yeni hərbi yardım paketini təsdiqləməsi real mənzərəni ortaya qoyur.

**Rotterdam limanı Rusiyanın hərbi təhdidinə qarşı...**

Belə bir şəraitdə NATO bu istiqamətdə fəaliyyətini gücləndirir. Doğrudur, bu müharibədə NATO müttəfiqləri Ukraynaya ciddi hərbi dəstək verir. Lakin alyans Rusiya ilə birbaşa münaqişədən yayınır. Bununla belə, vəziyyətin birbaşa Rusiya-NATO müharibəsinə çevrilmək ehtimalı da istisna olunmur. Yeri gəlmişkən, "Financial Times" nəşri Avropanın ən böyük limanı olan Rotterdam limanında NATO-nun tələbi ilə Rusiyanın mümkün hərbi təhdidinə qarşı hazırlıqların başlandığını yazıb. Məlumata görə, hazırda limanda bir sıra strateji addımlar atılır. Belə ki, hərbi yüklərlə dolu gəmilər üçün xüsusi dayanacaqlar ayrılır, silah və sursatların Şərqi Avropaya ötürülməsi üçün yeni logistik marşrutlar planlaşdırılır. Eyni zamanda, mövcud konteyner terminalı əsas yükləmə və boşaltma mərkəzinə çevriləcək. Bundan əlavə, liman ərazisində amfibiya (su və quru) hərbi təlimlərinin mütəmadi keçirilməsi də nəzərdə tutulur.

Nəşrin yazdığına görə, Rotterdam limanının direktoru həmçinin Avropa İttifaqını yalnız neft və qaz ehtiyatları ilə kifayətlənməməyə, mis, litium və qrafit kimi strateji xammalların da ehtiyatını yaratmağa çağırıb. Onun fikrincə, bu yalnız hərbi təhlükəsizlik baxımından deyil, sənaye və texnoloji dayanıqlıq üçün də həyati əhəmiyyət daşıyır.



Qeyd edək ki, NATO son aylarda Rusiya ilə potensial hərbi toqquşma ehtimalına qarşı üzv dövlətlərdə infrastruktur və logistik hazırlıqları artırmaq üçün təcili tədbirlər görür. Rotterdam limanında görülən bu addımlar da həmin strategiyanın bir hissəsi hesab oluna bilər.

**Bu tədbirlər toqquşma riskinin ciddi şəkildə nəzərə alındığını göstərir**

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq Züriyə Qarayeva bildirib ki, Rotterdam limanında NATO-nun təşəbbüsü ilə həyata keçirilən hazırlıqlar Avropada artmaqda olan hərbi gərginliyin və Rusiya ilə mümkün toqquşma riskinin ciddi şəkildə nəzərə alındığını göstərir. Onun sözlərinə görə, Avropanın ən böyük dəniz qapısı olan bu liman, strateji cəhətdən Şimali Atlantika alyansı üçün mühüm əhəmiyyət daşıyır. Limanda hərbi yüklər üçün xüsusi dayanacaqların ayrılması və Şərqi Avropaya silah və sursat daşınması üçün yeni logistik marşrutların planlaşdırılması, NATO-nun müdafiə xəttini öncədən möhkəmləndirmək istədiyini göstərir. Bu, həm də Ukrayna müharibəsindən sonra Avropanın təhlükəsizlik arxitekturasında baş verən köklü dəyişikliklərin davamıdır.

**Ümumi müdafiə strategiyasının bir parçası**

Onun sözlərinə görə, NATO son aylarda üzv ölkələrdə hərbi infrastrukturun təkmilləşdirilməsi, təlimlərin intensivləşdirilməsi və tez cavab vermə qabiliyyətinin artırılması istiqamətində bir sıra addımlar atır. Bu fonda, Rotterdam limanında həyata keçirilən tədbirlər təcrid olunmuş deyil, əksinə, ümumi müdafiə strategiyasının bir parçasıdır. Bu, yalnız Ukrayna ilə məhdudlaşmayan, daha geniş coğrafiyada baş verə biləcək hərbi ssenarilərə qarşı qabaqlayıcı hazırlıq kimi qiymətləndirilə bilər. "Bütün bu hazırlıqlar Rusiya ilə NATO arasında açıq hərbi qarşıdurma riskini tam reallığa çevirməsə də, gərginliyin təhlükəli şəkildə artdığını göstərir. Hər iki tərəf birbaşa müharibədən çəkinməyə çalışsa da, səhv hesablamalar və lokal eskalasiyalar bu cür ssenarini istisna etmir. NATO-nun bu addımları, eyni zamanda Rusiya üçün güc nümayişi və qarşı tərəfin iradəsini sınaqdan keçirmə cəhdi kimi də qiymətləndirilə bilər. Beləliklə, Rotterdam limanındakı hərbi-logistik hazırlıqlar, Avropada yeni təhlükəsizlik reallığının konturlarını daha da kəskinləşdirir və NATO-Rusiya münasibətlərində növbəti mərhələnin konturlarını ortaya qoyur",-deyə politoloq qeyd edib.

*N.BAYRAMLI*

# Avrozonanın yeni üzvü...

## Bolqarıstanı bundan sonra nələr gözləyir?

**Bolqarıstan 2026-cı il yanvarın 1-dən avrozonaya daxil olacaq. Ötən ay Avropa Mərkəzi Bankı (AMB) Bolqarıstanın gələn ildən pul vahidi kimi avrodan istifadə etməsinə razılıq verib. Qurumun hesabatında ölkənin vahid valyuta məkanına daxil olmaq üçün bütün şərtləri yerinə yetirdiyi göstərilir. Bildirilir ki, ölkənin ticarət şəbəkəsi və banklar yeni valyutadan istifadəyə hazırdır.**

### Etirazçılar hesab edir ki...

İyulun 8-də isə Avropa Parlamenti Bolqarıstanın 2026-cı il yanvarın 1-dən avrozonaya daxil olmasını dəstəkləyib. Təşkilatın Strasburqda keçirilən plenar iclasında baş tutan səsvermə zamanı 531 deputat Sofiyanın avrozonaya daxil olması üçün bütün tələbləri yerinə yetirdiyi barədə hesabatın lehinə, 69 deputat isə əleyhinə səs verib. Beləliklə, avrozona ölkələri daha bir, sayca 21-ci üzvün - Bolqarıstanın üzvlüyünü təsdiqləyib. Bu, daha əvvəl kifayət qədər uzun çəkən müzakirələr və təsdiqləmə prosedurunun nəticəsi olub və yekunda Bolqarıstanın gələn il yanvarın 1-dən ümumi Avropa valyutasına keçməsi barədə qərar qəbul edilib.

2007-ci ildən Avropa İttifaqının (Aİ) üzvü olan Bolqarıstanda avroya keçid qərarı ölkədə etirazlara səbəb olub. Milli valyutanın avro ilə əvəzlənməsinin əleyhdarları hesab edirlər ki, bu, respublika iqtisadiyyatına zərər vuracaq və ölkənin suverenliyini məhdudlaşdıracaq.



### Avroya keçid bahalaşmaya səbəb olacaq

Avropa İttifaqındakı mənbələr KİV-ə açıqlamasında bildirib ki, üzv dövlətlərin avroya keçidi uzunmüddətli perspektivdə həmişə müsbət faktdır, lakin keçid dövründə əhalinin sosial müdafiəsi məsələlərini həll etmək yerli hakimiyyət orqanlarının üzərinə düşür və bu, Bolqarıstana da aiddir. Həmsöhbətin fikrincə, istənilən valyuta denominasiyasının qiymətlərin sıçrayışı ilə müşayiət olunması adi iqtisadi prosesdir: "İstehlakçı qiymətləri həmişə yüksəlir, lakin müxtəlif amillərdən asılı olaraq onların hamısı eyni vaxtda və eyni formada yüksəlmir. Avroya keçid zamanı qiymətlərin eyni vaxtda artması qaçılmazdır. Lakin müəyyən səviyyəyə qalxdıqdan sonra onlar yenidən stabil mövqe tapacaqlar".

Qeyd edilib ki, avro investorlar tərəfindən qəbul edilən sabit valyutadır və uzunmüddətli perspektivdə Bolqarıstanın avrozonaya daxil olması ölkə iqtisadiyyatına və ticarətinə müsbət təsir göstərəcək. Bu, digər Aİ ölkələrində ümumi valyutaya keçid təcrübəsində də müşahidə olunub.

Nəzərə alaq ki, son illər Aİ daxilində problemlər artmaqdadır. Birlik maliyyə böhranı ilə də üzləşib, eyni zamanda cəmiyyətlərdə radikal əhvalruhiyyənin artması da müşahidə olunur. Ən əsası bir sıra üzv ölkələr öz suverenliyinin təhdidlə üz-üzə qaldığını bəyan edirlər. Bolqarıstan cəmiyyətində də avrozonaya keçidlə bağlı etirazlar da bununla bağlıdır.

### Avrozona, yoxsa "müstəmləkə məkanı"?

Məlumdur ki, avrozona mövzusu zaman-zaman Aİ daxilində fikir ayrılığı yaradan məsələlərdən biridir. Hətta bir müddət öncə Aİ-nin "avrozonanın müstəmləkə məkanı"na çevrildiyindən bəhs olunurdu. Bunun əsasında isə Almaniyanın tutduğu mövqenin dayandığı bildirilir. Onun əlamətlərindən biri kimi Fransa-Almaniya tərəfdaşlığının "laxlaması" göstərilir. Çünki Berlinin həyata keçirdiyi valyuta siyasəti Parisin rəqabət imkanlarını xeyli azaldıb, bu da Aİ-nin obyektiv inkişaf potensialının aşağı düşməsinə gətirib çıxarıb. Hesab edilir ki, Aİ-nin bu mövzuda etirazların yaranmasında Almaniyanın valyuta siyasəti ciddi rol oynayır. Bəs Berlin nə üçün bu addımı atır? Görünür, o, Aİ-də əsas dövlət rolunu oynamağı, son nəticədə isə dünya siyasətində əsas söz sahibi olmağa çalışır. Bütün bunlar isə Aİ üçün çox əhəmiyyətli ola bilən geosiyasi nəticə çıxarmaq imkanı verir.

Konkret olaraq, Aİ-nin üzvlərindən biri təşkilat daxilində maliyyə-iqtisadi hegemonluğu ələ keçirmək siyasətini gücləndirdiyinə görə qarşıya xeyli problemlər çıxıb. Bu halda isə Aİ-nin hansı dərəcədə demokratik və sivil bir təşkilat olması sualı yaranır. Ona görə də, bəzi dövlətlər haqlı olaraq suverenlik problemi ilə bağlı narahatlıqlarını ifadə edirlər.

Təsadüfi deyil ki, ötən ay Avropa Komissiyası bir sıra üzv ölkələrinə qarşı müxtəlif məsələlər üzrə iddia qaldırmağla bağlı qərar qəbul edib. Siyahıda Portuqaliya, Polşa, Yunanıstan, İsveç, İspaniya, İrlandiya ilə yanaşı, Bolqarıstan da yer alıb. Avropa Komissiyasının iddiasına görə, həmin ölkələr müəyyən qərarlara düzgün əməl etmirlər. Bu nöqteyi-nəzərdən, avrozonaya daxil olan Bolqarıstanı gələcəkdə yeni problemlərin gözləməsi də istisna deyil.

*N.BAYRAMLI*

# Qəbulə xanım və I Pyotr

## Qan düşmənçiliyinin qısa tarixi

I Pyotr general Matyuşkinə salyanlı Qəbulə xanım barədə: "Salyan hakiməsi Qəbulə xanım asilərin böyüyüdür. Ondan ehtiyatlı olmaq lazımdır ki, bir bədbəxtlik üz verməsin", - deyə bildirirdi. Bunu Abbasqulu Ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində yazıb.

Nə baş vermişdi ki, imperator özünün say-seçmə generallarından birinə belə vahiməli, qorxunc bir təlimat verir və Qəbulə xanımla ehtiyatlı davranmağı ona tövsiyə edirdi?

1721-ci ildə İsveçlə 21 illik müharibədən qalib çıxan I Pyotr 1722-ci il mayın 13-də arvadı Yekaterina Alekseyevna və admiral Apraksinlə birgə Qafqazın Xəzər sahillərinə yürüş üçün Moskvadan yola düşdü. İyulun 18-də general-admiral Arpaksinin komandanlığı altında 274 gəmi ilə başlayan yürüş nəticəsində səfəvi torpaqları olan Dərbənd, Bakı və Salyan ruslar tərəfindən işğal olunmalıydı.

Dərbənd, rus mənbələrinin yazdığına görə, müqavimətsiz zəbt olundu. Pyotr Bakıdan da müqavimət gözləmirdi. Amma güclü fırtına Bakıya doğru yürüşün qarşısını aldı. İmperator Peterburqa qayıtdı. Qayıtsa da, Bakını və Salyanı işğal etmək planı qüvvədə qalırdı.

1723-cü il iyulun 26-da Bakı da Dərbənd kimi demək olar ki, müqavimətsiz təslim oldu. Matyuşkinin şəhəri top atəşi ilə yandırmaq hədəsindən qorxan şəhər əhalisi rus mənbələrinin verdiyi məlumata görə döyüşsüz təslim oldu. Bir rus əsgərinin burnu belə qanamadan Bakı işğal olundu.

Bakının rus ordusu tərəfindən işğalından dərhal sonra, 1723-cü ilin payızında Peterburqda general Matyuşkin və naviqator, kapitan-leytenant Saymonovla I Pyotr arasında Salyan barədə söhbət oldu. Bir ay sonra, daha doğrusu, 1724-cü ilin payızında Bakı komendantı knyaz Baryatinskiyə Salyana böyük bir hərbi dəstə göndərilməsi barədə imperator tərəfindən xüsusi göstəriş verildi. Göstərişə əsasən, podpolkovnik Zambulatovun süvari batalyonu Salyana daxil oldu və rus hərbi qüvvələri Kür çayının sahilində Salyan hakiməsi Qəbulə xanımın malikanəsinin qarşısında qərargah qurdular. Bunu Bakıxanovdan 10 il əvvəl Aleksandr Sergeyeviç Puşkin də yazıb. Puşkinin 1835-ci ildə qələmə aldığı və I Pyotrun hakimiyyəti illərində baş verən hadisələri xronoloji ardıcıllıqla təqdim edən История Петра I (Изд-во Родина, 2021) əsərində belə bir ifadə vardır: "Matyuşkin və Saymonov Sankt-Peterburqa gəldilər. Pyotr xəstə Matyuşkinə baş çəkdi. Bir neçə gündən sonra knyaz Baryatinskidən xəbər aldı ki, polkovnik Zambulatovun batalyonu bütün Salyan quberniyasını və Kürə yaxın əraziləri işğal edib. Pyotr bu istiqamətdə hərbi qüvvələri gücləndirməyi əmr etdi (çünki Salyan hakiməsi (knyaginya) məkrli idi. Pyotr haqlıydı, çünki Zambulatov və bütün əsgərləri onun tərəfindən məkrlə öldürüldü."

Puşkin belə yazır. Saymonovun qeydlərində söhbətin məzmunu daha korrektdir: İmperator Bakıdan gələn kapitan Netisovdan Salyana göndəriləcək hərbi qüvvə ilə maraqlanır. Netisov, bir batalyon göndəriləcəyini deyəndə Pyotr, "bu, çox azdır" deyə cavab vermiş, səbəb kimi də Salyan hakiməsi olan xanımın çox təhlükəli olduğunu diqqətə çatdırmışdı. "Государь изволилъ спросить: "Во многомъ ли числъ послана команда вь Саллианъ? На то донесено: что сь однимь баталиономь. Очень мало, сказаль Государь, потому что ведомо, что та Сальянская Княгиня Ханума опасно, чтобы чего худова не учинилось, и притомь приказаль определить кь Бригадиру Борятинскому ордеромь, чтобь людей туда прибавить, и чтобь оть той Княгини имели всякую осторожность." Такимъ образомъ Государь предвидель, что вскоре потомь воспоследовало вь Саллианъ". (Описание Каспийскаго моря и чиненных на оном Российских завоеваний, яко часть истории государя императора Петра Великаго (Санкт Петербургъ. 1763)

Salyan bölgənin hakiməsi sayılan Qəbulə xanım tərəfindən idarə olunurdu. Baxmayaraq ki, tarixi qaynaqlarda, məsələn, İohan Herbertin yazdıqlarında Salyan naibinin Rusiyaya sədaqət andı içdiyi yazılır. Bəs necə olurdu ki, Salyan naibi Həsən bəyin ruslara sədaqət andı içməsinə rəğmən, Pyotr bütün hallarda Salyan məsələsi ilə



bağlı fikir mübadiləsi etdiyi hər kəsə naibin həyat yoldaşı Qəbulə xanımdan ehtiyatlı olmağı tapşırırdı? Pyotr haqlıymış. Salyanı istila edən rus zabitlərini qətlə yetirməsi Salyan hakiməsi Qəbulə xanımın (Onu bəzən Salyanlı şahzadə Xanım da adlandırırlar) siyasi mövqeyi idi. Salyan Azərbaycanda işğalçı rus əsgərinin qanının axıdıldığı ilk torpaq idi. Qəbulə xanım Rus zabitlərini zərərsizləşdirməklə 4 ay əvvəl şəxsən Bakıya gedib Rusiyaya sədaqət andı içmiş həyat yoldaşı ilə eyni düşüncəni paylaşmadığını da sərgiləmişdi. Dövrün sənədlərində dönə-dönə qeyd edildiyi kimi, bir gün podpolkovnik Zambulatov hərbi heyətin zabitləriylə Qəbulənin malikanəsində təşkil olunmuş ziyafətə qatıldı. Ziyafət zamanı otağa silahlı adamlar girdi və Zambulatov da daxil olmaqla, bütün rus zabitləri qətlə yetirildi. Və bu qətl rus tarixçilərinin yazdığına görə xüsusi amansızlıqla törədildi.

Unutmayaq ki, Zambulatovun batalyonunda 500 süngüsü olan süvari əsgər var idi. Qaynaqlar isə bildirir ki, Qəbulənin adamları təkcə ziyafətə qatılmış zabitləri qətlə yetirməklə kifayətlənməmidilər. 500 nəfərlik hərbi heyətə hücum etdilər və ələ keçən bütün əsgərləri öldürdülər, qaçmağa müvəffəq olanlar isə gəmilərlə Bakıya qayıtdılar.

...Kürün mənsəbinə nəzarət edən kapitan-leytenant Soymonovun jurnalına (səyahətnaməsinə) istinad edən Millerə görə, bu qanlı hadisənin arxasında Salyan naibi Həsən bəyin xanımı Qəbulə dayanırdı. Bu, baş vermiş hadisənin ən mühüm məqamlarından biridir. Rus mənbələrində hadisənin səbəbkarı kimi diqqət mərkəzinə naib deyil, naibin xanımı gətirilir.

1869-cu ildə Peterburqda nəşr olunmuş "Материалы для новой истории Кавказа сь 1722 по 1803 годь" kitabında Butkov bu qanlı hadisənin geniş təfsilatını yazıb. Hadisə dediyim kimi, Puşkinin "İstoriə Petra I" xronoloji qeydlərində də, Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində də, başqa yazılı mənbələrdə də işıqlandırılıb. Bakıxanov da görünür, Saymonovun, Puşkinin xatırlanan qeydlərindən qaynaqlanaraq, Qəbulə xanımın tarixi obrazını daha qabarıq təqdim edir: "Zambulatov, öz batalyonu ilə gedib Kür çayı sahilində, o yerin hakimi, Salyan sultanı Həsən bəyin hərəmi Qəbulə xanımın sarayı qarşısında ordugah qurdu. Müəyyən bir şəhər salmaq üçün tədarükdə idi. Qəbulə xanım dostluq və ixlas göstərib, bir gün Zambulatovu bütün zabitlərlə bir yerdə qonaq çağırdı. Xörək yeyildiyi zaman, otağa müsəlləh adamlar girib, onların hamısını öldürdülər".

Bu qeydləri etdikcə düşünürəm: XVIII yüzilin əvvəllərində Salyanlı bir xanım - Salyan qazisi Molla Məhəmmədin qızı rus ordusunun zabitlərini öz evinə necə qonaq çağıra bilərdi?

Bir az əvvəl I Pyotr general Matyuşkinə Salyan hakiməsindən ehtiyatlı olmağı tövsiyə etmişdi. Necə ola bilərdi ki, Matyuşkin imperatorun bu tövsiyəsini Salyana göndərdiyi batalyonun komandirinə çatdırmayaydı? Və Salyana 300 il əvvəl bir hərbi dəstənin zabit heyətini bir yerdə qəbul edə biləcək malikanə olubmu? Bu sualların heç birinin cavabı yoxdur. Amma fakt olaraq hamısı tarixi qaynaqlarla təsbit olunur. Pyotrun Matyuşkinə Salyan hakiməsi barədə dediyi sözlər də, Qəbulə xanımın rus zabitlərini öz evinə qonaq çağırması da, evində onlara ziyafət verməsi də... və Qəbulənin evindəcə onların hamısının qətlə yetirilməsi də, mistika deyil, həqiqətdir.

Hadisənin baş verdiyi məkanın izləri Salyanın hansısa səmtində qalırmı? Məsələ burasındadır ki, Salyan 1799-cu ilə qədər indiki Salyanın yerində olmayıb. Bakıxanovun bildirdiyinə görə, 1799-cu ildə Şirvanlı Mustafa xan Rudbar əmirlərinin köməyi və salyanlıların təklifi ilə gedib Səlyanı aldı. Şəhəri köçürüb, dörd ağac yuxarıda, indiki yerində bina etdi". Bakıxanovun "Gülüstani-İrəm" əsərindəki bu məlumata istinad etsək, Salyan hakiməsi Qəbulə xanımın malikanəsi indiki Salyandan dörd ağac (28 km) irəlidə, yəni indiki Xıllı qəsəbəsinin ərazisində olub. Övliya Çələbi isə yazırdı ki, "Şəhrin şimalına qərib bir yerdə Kür nəhri dəryaya tökülür..." Çələbinin təsvir etdiyi mənzərə sanki 350 il əvvələ deyil, indiyə aiddir. Doğrudan da, indiki Xıllının, o zamankı Salyanın şimalında Kür çayı Xəzərə tökülür.

***

1724-cü ildə Salyanda bir gündə rus imperiya ordusunun bir batalyonunun bütün zabit heyəti zərərsizləşdirilmişdi. Salyanda elə bir hadisə baş vermişdi ki, hətta rus tarixçiləri də buna biganə qala bilməmişdilər.

Bu, təkcə Salyanın tarixində deyil, ümumazərbaycan tarixində sonrakı dövrlərdə bənzərinə rast gəlinməyən nadir hadisə idi.

Bəzi qaynaqlarda qətlə yetirilən rus zabitlərinin sayı 8, bəzilərində isə 22 nəfər göstərilir.

Batalyonun say tərkibi ilə bağlı isə bütün qaynaqlar yekdildir. Salyana Xəzər dənizi vasitəsi ilə 500 süngüsü olan batalyon göndərilmişdi.

Qəbulə xanımın gücü nə imiş və necəymiş ki, o, Salyanda 500 nəfərlik bir batalyonu məğlub edib? Hər halda, 50 min əhalisi olan Salyanın hakiminin əmrində qoşun var idi, bu, tarixi bəlgələrdə aydın şəkildə bildirilib. Rus əsgərlərinin Salyanda, Kürün mənsəbində 300 nəfər silahlı süvari ilə qarşılaşdığını Saymonov özü görüb və yazıb.

Yaxud bu kontekstdə heyrət doğuran başqa bir tarixi məlumat. Puşkinin qeydlərində bir fraza diqqəti cəlb edir. Hadisədən sonra, yəni 1724-cü il noyabrın 9-da general Matyuşkin dənizlə yola çıxır və Matyuşkinin gəmisi Bakıda lövbər salır. Matyuşkin Bakıda Qəbulə xanımın Salyanda məhv etdiyi batalyonun sağ qalıb qaçmış zabiti kapitan Kazlovla görüşür. Söhbət 500 nəfərlik bir batalyonun sağ qalmış yeganə zabitindən gedir...

*Azər TURAN*

davamı növbəti sayımızda

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# Azərbaycanın tolerantlıq modeli...

**Milli və dini müxtəliflik tarix boyu ölkəmizdə insanlar arasında fərq yaradan amil hesab edilməyib və indi də belədir. Hər zaman olduğu kimi, bu gün də Azərbaycanda bütün dini inanclara, adət-ənənələrə hörmətlə yanaşılır, fərqli dini mənsubiyyətli insanlara heç bir dözümsüzlük yoxdur. Dini və milli tolerantlıq anlayışı insan haqlarının qorunması, azadlıqların təmin edilməsi və ictimai harmoniyanın formalaşdırılması ilə sıx bağlıdır. Tolerantlıq sadəcə dözümlülük deyil, eyni zamanda başqalarının inanclarına, adət-ənənələrinə və milli kimliklərinə hörmətlə yanaşmaqdır. Bu anlayış fərdlərin bir-birini daha yaxşı tanımasına, birgəyaşayış mədəniyyətinin formalaşmasına və qarşılıqlı anlaşmanın dərinləşməsinə zəmin yaradır. Tarix boyu dini və milli münaqişələrin yaratdığı fəsadlar bəşəriyyətə ağır ziyanlar vurub, cəmiyyətlər arasında parçalanmaya səbəb olub. Lakin tolerantlığın və dialoqun hakim olduğu cəmiyyətlər daha sabit, təhlükəsiz və firavan olub. Tarixi nümunələr göstərir ki, multikultural mühitin mövcud olduğu ölkələrdə elmi, mədəni və iqtisadi inkişaf daha sürətli gedib, fərqli din və etnik mənsubiyyətə malik insanlar birgə fəaliyyət göstərərək ümumi rifaha töhfə veriblər.**

## Müxtəlif dinlər və etnik qrupların harmoniyası

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, müasir dövrdə qloballaşma və miqrasiya prosesləri dini və milli müxtəlifliyi daha da artırıb. Bu da insanları qarşılıqlı anlaşmaya, mədəni dialoqa və tolerantlığa daha çox önəm verməyə sövq edir.

Deputat qeyd edib ki, dünyanın bir çox ölkəsində multikulturalizm siyasəti yürüdülür, müxtəlif xalqların və dinlərin bir arada sülh şəraitində yaşaması üçün hüquqi və sosial mexanizmlər formalaşdırılır: “Azərbaycanda da dini və milli tolerantlıq qədim ənənələrə söykənir. Ölkəmiz tarixən fərqli millətlərin və dinlərin nümayəndələrinin dostluq və qarşılıqlı hörmət şəraitində yaşadığı bir məkan olub. Azərbaycan modeli dünyada tolerantlığın və multikulturalizmin uğurlu nümunələrindən biri kimi qəbul edilir. Bu gün ölkədə müxtəlif dinlər və etnik qruplar arasında harmoniyanın qorunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir”.

C.Məmmədovun sözlərinə görə, tolerantlıq və harmoniyanın davam etməsi üçün dövlət və digər qurumlar fəal şəkildə çalışır: “Bu vəziyyət bir tərəfdən Azərbaycan xalqının milli mentaliteti ilə sıx bağlıdır. Milli xarakterimizdə, mənəviyyatımızda və psixologiyamızda bu tolerantlıq və birgəyaşayış mədəniyyəti özünü göstərir. Digər tərəfdən, bu dəyərlər hüquqi müstəvidə də təsbit olunub. Konstitusiyada əksini tapan bu keyfiyyətlər hüquqi məzmun kəsb edərək ölkənin sosial və siyasi sisteminin əsas prinsiplərindən birinə çevrilib. Bu, unikal bir hadisədir və xalqımızın birliyi, həmrəyliyi, gücü və bərabərliyi məhz zəngin mədəniyyətdən, dərin dini və siyasi dünyagörüşündən qaynaqlanır. Həmin keyfiyyətlər Azərbaycan xalqını daha böyük gələcəyə aparacaq gücə və perspektivə malikdir”.



Deputat bildirib ki, hazırkı tarixi mərhələdə yeni şərtlər daxilində multikultural dəyərlərin daha da zənginləşdirilməsi, dini tolerantlığın dərinləşdirilməsi və bütün dinlərin nümayəndələrinin Azərbaycanda öz inanclarını sərbəst şəkildə ifadə etməsi mühüm əhəmiyyət daşıyır: “Hətta eyni din daxilində olan fərqli məzhəblərin daşıyıcılarının birgə vəhdət namazı qıla bilməsi bu mühitin nə qədər perspektivli və dərin olduğunu göstərir. Bu, cəmiyyət daxilində həmrəyliyin və qarşılıqlı hörmətin yüksək səviyyədə olduğunu sübut edir.

## Həmrəylik və qarşılıqlı hörmət yüksək səviyyədədir

Həyatın bütün sahələrində rasional və praqmatik islahatlar ölkəmizdə həyata keçirilir və Azərbaycan həm də sivilizasiyalararası münasibətlərin tənzimlənməsində belə mühüm rol oynayır. Bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, ölkəmizdə multikultural cəmiyyət var. Xüsusilə qeyd etmək lazımdır ki, belə bir cəmiyyətin formalaşdırılması heç də kənardan göründüyü qədər sadə, bəsit bir məsələ deyil. Belə bir mühitin formalaşması üçün əsrlərlə vaxt tələb olunur. Ona görə də cəsarətlə deyə bilərik ki, məhz dini və milli tolerantlıq, eləcə də millətlərarası münasibətlərin inkişaf etdirilməsi istiqamətində çox böyük, həm də məqsədyönlü işlər görülüb”.

*Yeganə*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Daha sabit və ədalətli cəmiyyət!

## Hüquq sağlam və güclü demokratiyanın təməlidir...



Tarix boyu insanlar sosial, iqtisadi, siyasi və hüquqi sahələrdə bərabərlik uğrunda mübarizə aparıb. Nəticədə, bir çox dövlətin qanunvericiliyində bu prinsip əsas hüquqlardan biri kimi təsbit olunub. Belə ki, irqindən, cinsindən, dilindən, dinindən, mənşəyindən və siyasi əqidəsindən asılı olmayaraq, bütün insanlar bərabər hüquqlara sahibdir.

Bu gün bütün dünyada Dünya Hüquq Günü kimi qeyd olunur. 10 iyul tarixinə qədər “Hüquq yolu ilə dünya sülhü” adlı 2 beynəlxalq konfrans keçirilsə də, 1967-ci ildə Cenevrədə keçirilən 3-cü konfransdan başlayaraq, hər il 10 İyul Dünya Hüquq Gününün qeyd edilməsi qərara alınır.

Demokratik cəmiyyətdə insana qayğı yüksək və ali məqsəd sayılır. Bu baxımdan da müvafiq olaraq insan hüquqları və azadlıqlarının konstitusiyada və qanunlarda təsbit və təsdiq edilməsi dövlət idarəçiliyinin əsas məqsədi kimi çıxış edir.

Müasir dünyada inkişaf etmiş demokratik dövlətlər öz ölkəsində insan hüquqlarının təmin edilməsi ilə yanaşı, başqa ölkələrdə də onların qorunmasına, demokratik cəmiyyət quruculuğuna yardım etməyə çalışırlar. Hələ 1941-ci ilin yanvar ayında ABŞ prezidenti Franklin Ruzvelt özünün Konqresə göndərdiyi müraciətində Amerika milləti qarşısında duran yeni məqsədin bütün dünyada insan hüquqlarının pozulması hallarına qarşı mübarizə aparmaqdan ibarət olduğunu bəyan etmişdi. O, “Dörd aylıq azadlıq” əsərində göstərirdi ki, “... sağlam və güclü demokratiyanın təməlində müəmmalı bir şey yoxdur. Xalqımızın siyasi və iqtisadi sistemdən gözlədiyi əsas şeylər çox sadədir...

**- işləyə bilənlər üçün iş;**

**- ehtiyacı olanların təhlükəsizliyi;**

**- seçmə adamlar üçün xüsusi imtiyazların ləğvi;**

**- hamı üçün vətəndaş azadlıqlarının saxlanılması;**

**- həyat səviyyəsinin daim yüksəlməsi üçün elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə olunması”.**

**Bərabərlik hüququnun əhəmiyyəti**

Bərabərlik hüququ hər bir cəmiyyətin inkişafı və rifahı üçün mühüm əhəmiyyət daşıyır. Hüquqi bərabərlik olmadığı halda, ayrı-seçkilik, sosial narazılıq və ədalətsizlik yaranır. Tarixi təcrübə göstərir ki, hüquqi və sosial bərabərlik təmin edildikdə, cəmiyyətlər daha sabit və ədalətli olur.

Bu hüququn qorunması üçün yalnız qanunların mövcud olması kifayət etmir. Hər bir vətəndaş bərabərlik mədəniyyətini formalaşdırmalı, həm öz hüquqlarını, həm də başqalarının hüquqlarını müdafiə etməyə töhfə verməlidir. Cəmiyyətin bütün üzvü bərabərlik hüququndan istifadə edərək daha ədalətli və bərabər bir dünya qurmağa çalışmalıdır.

Bərabərlik hüququ təkcə hüquqi norma deyil, həm də insan ləyaqətinin və ədalətin qorunmasının əsas vasitəsidir. Bu prinsipi qorumaq və inkişaf etdirmək hər kəsin ümumi vəzifəsidir.

**Dövlətdaxili hüquq**

Bu gün dünyada mövcud olan dövlətlərin hər birinin, ayrıca olaraq daxili hüququ mövcuddur. Ona görə də milli hüquqa dövlətdaxili hüquq da deyilir.

**Azərbaycanın hüquq sistemi**

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinin tamhüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul etməklə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib.

Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində atılan addımları görmək üçün ilk növbədə Konstitusiyaya nəzər salmaq lazımdır. Konstitusiyamızın təqribən yarıdan çoxu vətəndaşlarımızın hüquq və azadlıqlarının müdafiəsinə yönəlib və bu sahədə olan münasibətləri özündə ehtiva edir. Bu baxımdan insanların hüquqi-siyasi və mədəni səviyyəsinin yüksəldilməsi üçün də dövlət lazımi tədbirlər həyata keçirir.

*Yeganə BAYRAMOVA*

**Allah rəhmət eləsin!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı REAL Partiyası Siyasi Komitəsinin sədri Natiq Cəfərliyə atası

**MEHMAN CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Azercell-in kibermaarifləndirmə təşəbbüsü davam edir




Azercell və Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində keçirilən “Məktəblilər üçün Kibermaarifləndirmə Proqramı” növbəti mərhələsini uğurla tamamlayıb. Layihə bu dəfə Lənkəran, Masallı və Sumqayıt şəhərlərini əhatə edib. Təlimlər nəticəsində ümumilikdə 150-dən çox məktəbli kibirməkanda qarşılaşa biləcəkləri risklər, təhlükəli halların qarşısının alınması yolları və təhlükəsiz rəqəmsal davranış qaydaları barədə biliklər əldə edib.

Sessiyalar beynəlxalq standartlara əsaslanan proqram çərçivəsində Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin ekspertləri tərəfindən keçirilib. Təlimlər zamanı şagirdlərə şəxsi məlumatların qorunması, sosial şəbəkələrdə təhlükəsizlik qaydaları, onlayn fırıldaqçılıq və kiberbullinq halları ilə mübarizə yolları haqqında praktiki biliklər təqdim olunub. Real nümunələr əsasında keçirilən interaktiv məşğələlər isə iştirakçıların kibermühitdə təhlükəsiz davranış vərdişlərinin formalaşmasına töhfə verib.

Təlimlər haqqında ətraflı məlumat almaq üçün: https://www.youtube.com/shorts/3mEvMNaejHU

Qeyd edək ki, layihənin ilkin mərhələsində Xızı, Quba, Qusar və Xaçmaz rayonlarını əhatə edən təlimlərdə 226 şagird iştirak etmişdi. Beləliklə, “Məktəblilər üçün Kibermaarifləndirmə Proqramı” ümumilikdə 7 regionda 350-ə yaxın məktəblinin kibertəhlükəsizlik sahəsində maariflənməsinə xidmət edib.



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4029
Sifariş: 1434
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova